# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

30
YANVAR
2020-ci il
№ 16 (4147)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

## TRAMPIN FƏLƏSTİNƏ DAİR «ƏSRİN SÜLH PLANI» - ABŞ-ın QARABAĞ VASİTƏÇİLİYİNİN GƏLƏCƏYİNDƏN NARAHATLIQLAR BAŞ QALDIRIB...

■ səh. 8 ■

Putin TŞ-nin 5 daimi üzvünə ayrıca görüş formatı təklif etdi, İlham Əliyev isə supergüclərə Yaxın Şərq mesajı verdi... ■ səh. 3 ■

KİVDF və Gömrük Komitəsinin birgə müsabiqəsinin qalibləri mükafatlandırıldı ■ səh. 4 ■

Onlar deputatlığa namizəd olmağı YAP-dan çıxarılmaqdan üstün tutdular... ■ səh. 7 ■

Tramp "Əsrin sazişi" ilə Yaxın Şərqi dəhşətli müharibə alovuna atdı, Fələstin, İran, Türkiyə qəti "yox" dedi... ■ səh. 9 ■

İrəvanın mərkəzində azərbaycanlılarla bağlı son tarix yadigarlarını da məhv edirlər - ermənilərin "açıq muzey" oyunu... ■ səh. 11 ■

Sənədsiz evlərin sənədləşdirilməsi üzrə Prezidentin tapşırığı necə icra olunur - Bakı "meriyasının" mövqeyi... ■ səh. 13 ■

Azərbaycan qazı Bolqarıstan üçün də həyat mənbəyinə çevrildi ■ səh. 12 ■

Rusiyanın nəhəng "Transsibir" dəmir yolu Azərbaycanın Bakı-Tiflis-Qars xətti ilə birləşdirilir... ■ səh. 12 ■



■ səh. 5 ■

## Paşinyan Madrid prinsiplərini ələ salmaqda, Mnatsakanyan eyni prinsiplərlə Cenevrədə danışıqlarda - Bu necə olur...



**9 fevral seçkisini bu qədər beynəlxalq təmsilçi müşahidə edəcəksə - bəzi beynəlxalq qərəzli rəylərdən etibarlı sığorta üsulu...** ■ səh. 2 ■

**Ermənilər özlərinə saxta tarix yazdıqları vaxtda Akademiyanın Tarix İnstitutunda Deportasiya şöbəsini kim və niyə ləğv etdi...** ■ səh. 10 ■



**Tramp dövlətlərin iqtisadiyyatına dağıdıcı «dollar yürüşü»nə başlayır, Azərbaycan da hədəflərdən biridir...** ■ səh. 9 ■

■ səh. 2 ■
**AŞPA Azərbaycanda seçkiqabağı vəziyyətə təxribatçı müdaxilədə bir addım da atdı**



■ səh. 3 ■
**9 fevral seçkilərinin daha bir əlamətdarlığı - iş adamlarının deputatlıq iddiaları sönük oldu...**



■ səh. 5 ■
**9 fevral seçkisinin nəticələrinə kölgə sala biləcək neqativlər və pozuntular oldumu?**



■ səh. 13 ■
**İnşası illərdir yarımçıq qalmış tikililərin hərrac satışında alıcılar olacaqmı...**



■ səh. 15 ■
**Bölgələrdəki tarixi mədəniyyət abidələrinə nəzarət sistemində hansı boşluqlar var...**



# 9 fevral seçkisini bu qədər beynəlxalq təmsilçi müşahidə edəcəksə - bəzi beynəlxalq qərəzli rəylərdən etibarlı sığorta üsulu...

**Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərinə sayılı günlər qalıb və təbii olaraq seçkilər hazırda ölkənin əsas gündəm mövzusudur. Milli Məclis deputatlığına namizədliyin irəli sürülməsi, qeydiyyatı və təşviqat mərhələlərində heç bir ciddi pozuntuya yol verilməyib və bu faktı müxalifəti təmsil edən namizədlər də etiraf edirlər.**



## **Məhərrəm Zülfüqarlı:** *"Seçkilər demokratik olmasa, bu qədər beynəlxalq müşahidəçi parlament seçkilərini izləmək istəməz"*

Namizədlərin siyasi mənsubiyyətinə baxdıqda görürük ki, seçkilərin çoxpartiyalı əsasda keçirildiyini qeyd edə bilərik. Ümumilikdə, seçkilərdə iştirak üçün 2431 nəfər müraciət edib, seçkilərdə qeydiyyata alınan namizədlərin sayı 1374 nəfərdir (prosesin gedişində namizədlərin sayı dəyişə bilər), onlardan 248 nəfəri 19 siyasi partiyanın nümayəndəsidir.

Digər tərəfdən, 40-dan artıq media orqanı ödənişli təşviqatda iştirak etmək üçün MSK-ya müraciət edib. Hazırda mediada namizədlərin intensiv təşviqat materiallarının getdiyi müşahidə edilir. Ən başlıcası, seçkiləri 41 beynəlxalq qurumdan, 44 ölkənin vətəndaşlarından ibarət 409 nəfər beynəlxalq müşahidəçi izləyəcək. Yerli müşahidəçilərin sayı isə 54 min 292 nəfərdir. Bu da seçkilərə həm beynəlxalq aləmin, həm ictimaiyyətin böyük marağının olduğunu göstərməklə yanaşı, həm də ciddi ictimai nəzarət mexanizminin təmin edildiyini təsdiqləyir. O da məlumdur ki, bəzi beynəlxalq təşkilatlar Azərbaycanda hər dəfə seçki keçiriləndə onun nəticələrinə qərəzli mövqedən yanaşırlar. Bununla seçkilərin demokratik keçirilməsinə kölgə salmağa çalışırlar. Ancaq nəzərə alsaq ki, bu dəfə seçkiləri 409 beynəlxalq müşahidəçi izləyəcək, o baxımdan sözügedən amil müəyyən dairələrin seçki ilə bağlı qərəzli yanaşmalarının neytrallaşmasında necə rol oynayacaq?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, çoxsaylı beynəlxalq müşahidəçinin olması seçkilərlə bağlı bəzi beynəlxalq dairələrin qərəzli yanaşmalarını heçə endirəcək: "Əvvəla beynəlxalq müşahidəçilərin sayı daha da artacaq. ATƏT-in Müşahidə Missiyası ilə görüşdüm. Təkcə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu 350 nəfər müşahidəçini ölkəyə dəvət edib. Deməyim odur ki, beynəlxalq müşahidəçilərin çoxluğu seçkilərin demokratikliyini göstərir. Nəzərə almaq lazımdır ki, seçkilər demoratik olmasa, bu qədər beynəlxalq müşahidəçi parlament seçkilərini izləmək istəməz. Bu amil onu göstərir ki, Azərbaycanda seçki mühiti demokratikdir və beynəlxalq hüquq normalarına uyğundur.

*"Bu amil bəzi beynəlxalq təşkilatların Azərbaycanda seçkilərlə bağlı yanlış rəy formalaşdırmalarına imkan verməyəcək"*

**Ona görə də hesab edirəm ki, bu amil bəzi beynəlxalq təşkilatların Azərbaycanda keçirilən seçkilərlə bağlı yanlış rəy formalaşdırmalarına imkan verməyəcək. Hansı ki, hər seçkidə müəyyən təşkilatlar Azərbaycandakı seçkiləri və onların nəticələrini qaralamağa çalışırlar. Belə bir fikir formalaşdırmaq istəyirlər ki, guya Azərbaycanda azad, demokratik seçki keçirilmir, seçki nəticələri saxtalaşdırılır. O üzdən, bu dəfə onlar öz niyyətlərini həyata keçirə bilməyəcəklər".**

*Vidadi ORDAHALLI*

# AŞPA Azərbaycanda seçkiqabağı vəziyyətə təxribatçı müdaxilədə bir addım da atdı

**Yanvarın 28-də AŞPA-nın qış sessiyasında "Avropada media azadlığına və jurnalistlərin təhlükəsizliyinə təhdidlər" adlı qeyri-obyektiv qətnamə qəbul edilib. Qətnamədə Azərbaycanla bağlı hissədə deyilir ki, ölkəmiz mətbuat üçün düşmən ölkələrdən biridir.**



## **Yadigar Məmmədli:** *"Görünən odur ki, çox şey dəyişsə də, AŞPA-nın Azərbaycana olan qərəzli münasibəti dəyişmir"*

Sənəddə Azərbaycandakı vəziyyət barədə ayrıca danışılır. Tamamilə qərəzli olan həmin qətnamədə qeyd olunur ki, Azərbaycan hakimiyyəti jurnalistlərə qarşı repressiyaları dərhal dayandırmalı, söz və media azadlığını təmin etməli, mətbuat azadlığı və təhlükəsizliyi sahəsində Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi üçün real addımlar atmalıdır. Guya 5 jurnalist peşə fəaliyyətinə görə hələ də həbsdədir. Müstəqil jurnalistləri susdurmaq məqsədilə onlara qarşı cinayət işi qaldırıldığı, jurnalistlərin ölkəni tərk etməsinə məhdudiyyətlər qoyulduğu iddia olunur.

Digər tərəfdən, AŞPA-nın qərəzli münasibətinin dərəcəsinə bax ki, qətnamədə hətta jurnalistlərə dövlət tərəfindən pulsuz ev verilməsinə belə, ikrahla yanaşılır: "Eyni zamanda, son vaxtlar 400-dən çox hökumətyönlü jurnalist hakimiyyətdən pulsuz mənzil alıb ki, bu da "ələalma"nın bir vasitəsidir".

Hansı ki, ev alan jurnalistlərin hamısı hökumətyönlü deyil. Onların içində kifayət qədər müstəqil, hətta müxalif mövqedən çıxış edən jurnalist var. Görünən odur ki, AŞPA Azərbaycanda seçkiqabağı vəziyyətə növbəti dəfə təxribatçı müdaxilə edir. Məhz seçki ərəfəsində bu kimi təxribat xarakterli rəylərin artması bunların təsadüf olmadığını, məqsədli şəkildə həyata keçirildiyini göstərir.

Məsələyə münasibət bildirən media eksperti Yadigar Məmmədlinin sözlərinə görə, AŞPA ilə yanaşı, bir sıra beynəlxalq təşkilatların Azərbaycanla bağlı belə qərəzli yanaşmaları ənənə halını alıb: "AŞPA-da bir sıra dairələr var ki, onlar neçə ildir Azərbaycana qarşı ancaq ikili standartlarla çıxış edirlər. Ölkəmizə qarşı qərəzli mövqe tuturlar. Belə qərəzli rəylər ilk dəfə deyil dərc edilir. Zaman-zaman bənzər halların şahidi oluruq. Həmin dairələrin təsirilə Azərbaycan barəsində real olmayan fikirlər səsləndirilir. Bütün bunlar onu göstərir ki, məlum rəylər qərəzdən qaynaqlanır. Azərbaycanda son illər çox şey dəyişib. O cümlədən, media da dəyişib və inkişaf edib. Bütün bunlar inkişafa doğru gedib. Nə demələrindən asılı olmayaraq, Azərbaycandakı inkişafı danmaq olmaz. Ölkədə azad medianın inkişafı da göz qabağındadır. Ən ucqar kəndlərdə belə internet var. İnsanlar sosial şəbəkələrdə, internet saytlarında azad şəkildə öz fikirlərini ifadə edirlər. Əhalinin böyük hissəsi sosial şəbəkələrdə fəal iştirak edir. Ancaq, nədənsə, bütün bunlar AŞPA-nın hesabatlarında öz əksini tapmır.

*"Ölkədə azad medianın inkişafı da göz qabağındadır"*

**Yəni görünən odur ki, çox şey dəyişsə də, AŞPA-nın Azərbaycana olan qərəzli münasibəti dəyişmir. Bu baxımdan AŞPA-nın Azərbaycandakı media ilə bağlı rəyini qərəzli hesab edirəm. Hesab edirəm ki, biz onlara əhəmiyyət vermədən öz işlərimizi görməliyik. Mediada hansısa problemlər varsa, onların həlli ilə məşğul olmalıyıq".**

*Vidadi ORDAHALLI*

**Məlum olduğu kimi, Rusiya Prezidenti Vladimir Putin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin dövlət başçılarının görüşünün keçirilməsi ideyasını irəli sürüb. Onun sözlərinə görə, Rusiya, Çin, ABŞ, Fransa və Böyük Britaniya sivilizasiyanın qorunması üçün xüsusi məsuliyyət daşıyırlar.**



# Putin TŞ-nin 5 daimi üzvünə ayrıca görüş formatı təklif etdi, İlham Əliyev isə supergüclərə Yaxın Şərq mesajı verdi...

***Məhəmməd Əsədullazadə:** ”Yaxın Şərqdə baş verən qarşıdurma, Şərqi Avropa və Liviyada yaşanan maraq toqquşmaları...”*

Putinin fikrincə, 5 ölkə təhlükəsizlik üzrə birgə tədbirləri həyata keçirə bilər.

Rusiya dövlət başçısı belə hesab edir ki, dünyada getdikcə artan şovinizm, rasizm, antisemitizm kimi təhdidlər qarşısında ortaq hərəkət etmək vacibdir: "Biz təkcə bu sözləri birbaşa deməklə kifayətlənməyib, dünyanı qorumaq və onun uğrunda mübarizə aparmaq cəsarətini göstərməliyik".

BMT-nin özündə Rusiya dövlət başçısının təklifi müsbət qarşılanıb. Təşkilatın Baş katibi Antoniu Quterrişin rəsmi nümayəndəsi Farhan Hakın bildirib ki, BMT üzvləri arasındakı istənilən dialoqa müsbət yanaşırlar. Bununla belə, TŞ-nin daimi üzvləri olan Çin və Fransa Putinin bu təklifini dəstəkləyib. Digər üzvlər - ABŞ və Böyük Britaniya isə bu təklifə dəstək vermirlər.

Ancaq o da məlumdur ki, dünyanın bir sıra regionlarında, xüsusən də Yaxın Şərqdə gərginlik hökm sürür. Buna görə aparıcı dövlətlər məsuliyyət daşıyırlar. Bu günlərdə Davosda keçirilən forumda Prezident İlham Əliyev bununla bağlı çox vacib mesajlar verdi. Ölkə başçısının fikrincə, kövrək sabitliyin daha da sarsılmaması üçün supergüclər öz aralarında razılığa gəlməlidirlər: "Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan superqüvvələr, supergüclər daşıyacaq".

Bu baxımdan, TŞ daimi üzvlərinin ayrıca görüşü supergüclərin Yaxın Şərq probleminin həllində rolunun artmasında nə kimi təsiri olacaq?

*”Prezident İlham Əliyevin dünya dövlətləri arasında yaşanan bu konfliktlər fonunda qeyd etdiyi fikirlər ümumi mənzərəni real şəkildə təsvir edir”*

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Prezident İlham Əliyevin məlum fikirləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir: "Beynəlxalq müstəvidə böyük dövlətlər arasında ziddiyyətlər kəskinləşir. Məsələ ondadır ki, yeni dünya nizamı, çoxqütblü mərkəzlərin formalaşması üçün gərgin mübarizə gedir. Yaxın Şərqdə baş verən qarşıdurma, Şərqi Avropa və Liviyada yaşanan maraq toqquşmaları dünyada sülh və təhlükəsizliyi ciddi təhdid edir. Bundan əlavə, regionumuzda qeyri-stabil vəziyyət yarada bilən əsas faktor Ermənistanın işğalçı siyasətidir. Bu da bəzi qabaqlayıcı tədbirlərin görülməsini zərurətə çevirir. Məhz Azərbaycan Prezidenti İlham Əliyevin dünya dövlətləri arasında yaşanan bu konfliktlər fonunda qeyd etdiyi fikirlər ümumi mənzərəni real şəkildə təsvir edir. Hesab edirəm ki, Putinin Təhlükəsizlik Şurası üzvləri ilə birgə müzakirələr aparması təşəbbüsü bu baxımdan faydalıdır. Sözügedən təşəbbüs məhz konfliktlərin sülhlə həllinə dayanması istiqamətində atılan addımdır.

**Prezident İlham Əliyev də bu müzakirələri xüsusi olaraq qabardır. Hesab edirəm ki, bu gün Azərbaycanın apardığı manevr siyasəti, real güclər arasında balans, ölkəmizin təhlükəsizliyinin qorunmasına gətirir. Ona görə də fikrimcə, supergüclər öz məsuliyyətini dərk edib vacib qərarlar qəbul edəcəklər".**

***Vidadi ORDAHALLI***

**Azərbaycanda 2020-ci il fevralın 9-na təyin edilmiş növbədənkənar parlament seçkilərində iştirak etmək üçün 2431 nəfər müraciət edib. Namizədlərin içərisində müxtəlif peşə sahibləri var. Xüsusən də yaşca cavan olanlar prosesdə daha fəal görünürlər.**



# 9 fevral seçkilərinin daha bir əlamətdarlığı - iş adamlarının deputatlıq iddiaları sönük oldu...

***Azər Həsrət:** ”Bir sıra iş adamları var ki, ümumiyyətlə, siyasətdən uzaqdırlar”*

Ancaq seçki elan olunandan indiyə qədər müşahidələr göstərir ki, əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə namizədliyini irəli sürənlər arasında biznesmenlər çox azdır. Hansı ki, bir vaxtlar biznesmenlər parlamentə daha çox iddialı idilər. Xüsusən də 2005-ci ildə keçirilən parlament seçkilərində namizədlər içində iş adamlarının sayı çox idi. Belə ki, iş adamları bizneslərini yaxınlarının adına keçirib, seçkidə namizədliklərini ortaya qoyurdular. Sonrakı parlament seçkilərində namizədlərin içərisində iş adamlarının sayı azalmağa doğru getdi. Ancaq budəfəki seçki kampaniyasında isə, ümumiyyətlə, onların sayı kəskin azalıb. Bəlkə də biznesmenlərin siyasətə marağı ona görə azalıb ki, öz gəlirlərini, biznes fəaliyyətlərini daha üstün tuturlar. Yaxud da özlərini siyasətdə görmədiklərini anladıqları üçün, namizəd olmalarını məqsədəuyğun saymırlar.

Maraqlıdır, bəs ekspertlər iş adamlarının deputatlığa maraq göstərməməsinin səbəbini nə ilə izah edirlər?

Məsələyə münasibət bildirən ekspert Azər Həsrət bunu bir sıra amillərlə əlaqələndirdi: "Məsələ ondadır ki, budəfəki parlamentin yeni tərkibi yeni çağırışlara uyğun formalaşacaq. Çünki parlament vaxtından əvvəl buraxıldı ki, məhz Prezidentin həyata keçirdiyi islahatlara uyğun qanunverici orqan formalaşdırılsın. Ona görə də iş adamları baxıb gördülər ki, bu dəfə peşəkar siyasət adamlarından, peşəkar qanunverici kadrlardan ibarət bir parlamentin formalaşdırılmasına ehtiyac var. Onlar bunu dərk etdiyindən, parlamentdə vaxt itirmək istəmirlər. Çünki, bir qayda olaraq, o iş adamı dediyimiz şəxslər, faktiki olaraq, gəlib Milli Məclisdə otururdular, amma hansısa faydalı işləri ilə seçilmirdilər. Qanunların yaradılmasında, praktiki olaraq, iştirak etmirdilər. Yəni iş adamı olan deputatların ciddi çıxışları, təşəbbüsləri heç vaxt gündəmdə olmayıb. Ona görə də iş adamlarının parlamentdə olması məqsədəuyğun deyil.

*”...biznesmenlər deputatlıq iddiasından əl çəkiblər”*

Biznesmenlər siyasətə qarışmasalar yaxşıdır. Çünki siyasət həvəskarların yeri deyil. Peşəkar şəkildə siyasətlə məşğul olanlar bu sahədə olmalıdırlar. Bununla yanaşı, Prezidentin çağırışlarını nəzərə alaraq bu cür adamlar siyasi iddiadan uzaq durmağı üstün tutdular. Hesab edirəm ki, iş adamlarının bu addımı doğrudur. O mənada ki, parlament peşəkar siyasət adamlarından ibarət olmalıdır. Xüsusən də siyasi təcrübəsi olan və xarici dil bilən şəxslər parlamentdə təmsil olunmalıdırlar. Parlament beynəlxalq təşkilatlarla işləmə bacarığı olan şəxslərdən formalaşmalıdır. Bir sıra iş adamları var ki, ümumiyyətlə, siyasətdən uzaqdırlar. Hesab edirəm ki, bütün bu amilləri nəzərə aldıqları üçün iş adamları deputatlıq iddiasından əl çəkiblər".

***Vidadi ORDAHALLI***

# KİVDF və Gömrük Komitəsinin birgə müsabiqəsinin qalibləri mükafatlandırıldı

**Yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Dövlət Gömrük Komitəsinin birgə elan etdiyi "Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər" mövzusunda müsabiqənin nəticələri açıqlanıb və qaliblər mükafatlandırılıb.**

Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Fondun icraçı direktoru Vüqar Səfərli, komitənin rəhbər vəzifəli şəxsləri, habelə müsabiqənin qalibi olmuş jurnalistlər iştirak edib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev media nümayəndələrini salamlayaraq bildirib ki, son zamanlar Dövlət Gömrük Komitəsinin rəhbərliyi və KİV nümayəndələri arasında intensiv görüşlər keçirilir. Səfər Mehdiyev 2019-cu ilin bu baxımdan Azərbaycan gömrüyü üçün daha əlamətdar olduğunu vurğulayıb : "Müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev və onun ideyalarının sadiq daşıyıcısı Prezident İlham Əliyev daim mediaya qarşı həssaslıq göstərib, kütləvi informasiya vasitələrinin inkişafı üçün xüsusi proqram və layihələr həyata keçirib, jurnalistlərin ən yaxın dostu olublar. Bugünkü həyatımızı medianın iştirakı olmadan təsəvvür etmək mümkün deyil. Bütün sahələrdə baş verən hadisələrin, xüsusilə neqativ halların araşdırılaraq ictimaiyyətə çatdırılması, əsaslı və haqlı tənqid cəmiyyətin formalaşması və inkişafında mühüm rol oynayır".

Səfər Mehdiyev bildirib ki, Dövlət Gömrük Komitəsi fəaliyyətində ictimaiyyətlə əlaqələrə xüsusi diqqət yetirir və iş prinsipini media ilə açıq və şəffaf əməkdaşlıq üzərində qurur. Komitə sədri, həmçinin vurğulayıb ki, bu məqsədlə son iki ildə gömrük sahəsində ixtisaslaşan jurnalistlərin bilik və bacarıqlarının artırılması üçün xüsusi seminar və təlimlər keçirilib, gömrük işinin təşkilinin daha aydın mənimsənilməsi üçün müxtəlif gömrük idarələrinə və gömrük postlarına jurnalistlərin səfərləri təşkil olunub: "Qeyd etməliyəm ki, media-gömrük münasibətlərinin inkişafı istiqamətində görülən tədbirlərin nəticəsidir ki, son illərdə kütləvi informasiya vasitələri və jurnalistlər gömrük sisteminə daha həssaslıqla yanaşır, bu sahəyə həsr olunan reportaj və məlumatlar daha da peşəkarlıqla hazırlanır".

Gömrük orqanlarının ötənilki fəaliyyətindən danışan Səfər Mehdiyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar hesabına 2019-cu ildə də uğurlu nəticələrin əldə olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, maliyyə nəzarətinin gücləndirilməsi, uçot sisteminin düzgün qurulması, şəffaflığın təmin olunması hesabına 706 milyon manatdan artıq vəsait toplanaraq dövlət büdcəsinə köçürülüb. Ötən il 4 milyondan artıq elektron xidmət həyata keçirilib və sərhədkeçmə prosesləri zamanı 17 milyon insana xidmət göstərilib".

Səfər Mehdiyev bildirib ki, gömrük orqanlarının fəaliyyətinin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılması baxımından Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə təşkil olunmuş müsabiqə mühüm əhəmiyyətə malikdir: "Bu gün Dövlət Gömrük Komitəsinin və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə təşkil etdiyi "Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər" mövzusunda yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimindəyik. Müsabiqə 30 yanvar - gömrük əməkdaşlarının peşə bayramına həsr olunub. Müsabiqəyə təqdim olunan yazı və videoreportajlardan da aydın görmək olar ki, gömrük-media münasibətlərində səmərəli əməkdaşlıq öz nəticəsini verir. Ötən ilki müsabiqə ilə müqayisə apardıqda, aşkar görünür ki, təqdim olunan yazılar daha peşəkarlıqla hazırlanıb. Jurnalistlərimizin gömrük sahəsində daha çox məlumatlı olduğu müşahidə edilir".

Komitə sədri Səfər Mehdiyev sonda bütün müsabiqə iştirakçılarına təşəkkürünü bildirib və onlara yaradıcılıq uğurları arzulayıb: "İnanıram ki, peşəkar fəaliyyətinizlə gömrük orqanları və media arasında qarşılıqlı səmərəli işgüzar münasibətlərin qurulması və inkişaf etdirilməsi üçün səylərinizi bundan sonra da əsirgəməyəcəksiniz".

Sonra Səfər Mehdiyev müsabiqənin nəticələri barədə danışmaq üçün sözü Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərliyə verilib.





Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq birgə tədbirin gömrük işçilərinin peşə bayramı ərəfəsinə təsadüf etdiyini vurğulayıb. Bu münasibətlə komitənin rəhbərliyini və çoxsaylı kollektivini təbrik edən icraçı direktor onlara məsuliyyətli işlərində uğurlar arzulayıb.

Son illər Dövlət Gömrük Komitəsində vətəndaş məmnunluğuna xidmət edən əsaslı islahatların aparıldığını bildirən Vüqar Səfərli uğurlu nəticələrin ölkə rəhbərliyi səviyyəsində də təqdir edildiyini xüsusi vurğulayıb.

İcraçı direktor gömrük orqanlarının fəaliyyətində tətbiq olunan çevik, müasir və şəffaf idarəçilik metodlarının sahibkarlar və sadə vətəndaşlar tərəfindən də razılıqla qarşılandığını bildirib.

Vüqar Səfərli, həmçinin bildirib ki, Fondun fəaliyyətində başlıca istiqamətlərdən biri də mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirməkdir. O qeyd edib ki, bu məqsədlə müxtəlif dövlət qurumları ilə mütəmadi olaraq konfranslar keçirilir, fərdi jurnalist yazıları təşkil olunur.

İcraçı direktor Fondla Komitənin birgə təşkil etdiyi "Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər" mövzusunda yazı və telesüjet müsabiqəsinin gömrük sistemində aparılan islahatların mahiyyətinin ictimaiyyətə obyektiv və dolğun şəkildə çatdırılması baxımından əhəmiyyətini qeyd edib.

İcraçı direktor birgə müsabiqənin 2019-cu il noyabrın 22-dən 2020-ci il yanvarın 17-dək davam etdiyini vurğulayıb. Vüqar Səfərli bildirib ki, müsabiqədə qəzet, agentlik və saytlarla yanaşı, televiziyalarda çalışan jurnalistlər də iştirak ediblər. O əlavə edib ki, müsabiqədə məqsəd gömrük orqanlarının fəaliyyətində şəffaf idarəçilik metodlarının tətbiqi sahəsində həyata keçirilən tədbirlərin ictimaiyyətə çatdırılmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır: "Müsabiqəyə 27 KİV-dən 38 yazı, o cümlədən 3 televiziyadan 4 süjet təqdim edilib. Müsabiqənin şərtlərinə əsasən, qəzet, agentlik və onlayn mediada çalışan jurnalistlər üçün 6 əsas, 10 həvəsləndirici, eləcə də televiziyalarda çalışan jurnalistlər üçün 3 əsas, 3 həvəsləndirici mükafat nəzərdə tutulub. Müsabiqənin şərtlərinə əsasən, I yerin qaliblərinə 1500, II yerlərin qaliblərinə 1000, III yerlərin qaliblərinə 600 manat veriləcək. Bundan əlavə, həvəsləndirici yerlərə layiq görülənlərin hər biri üçün 200 manat mükafat nəzərə tutulur".

Vüqar Səfərli, həmçinin Komitə rəhbərliyinin media ilə qarşılıqlı faydalı əməkdaşlığa açıq olmasını təqdir edərək bunun bəzi nöqsanların operativ şəkildə aşkarlanması və aradan qaldırılması baxımından əhəmiyyətini diqqətə çəkib. İcraçı direktor, həmçinin diqqətə çatdırıb ki, Fond media ilə mərkəzi icra hakimiyyəti orqanları arasında əməkdaşlığın inkişafında fəal roluna görə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin xüsusi diplomla təltif olunmasına qərar verib. İcraçı direktor Fondun diplomunu komitə sədri Səfər Mehdiyevə təqdim edib.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

**Tədbiri yekunlaşdıran komitə sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev KİV-lərlə əməkdaşlığın genişləndirilməsində xidmətlərinə görə Fondun rəhbərliyinə minnətdarlığını bildirərək, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.**

# Paşinyan Madrid prinsiplərini ələ salmaqda, Mnatsakanyan eyni prinsiplərlə Cenevrədə danışıqlarda - Bu necə olur...

**Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan arasında görüş baş tutub. Bununla bağlı Azərbaycan XİN-in mətbuat katibi Leyla Abdullayeva "Twitter" səhifəsində paylaşım edib.**

Görüşdə Minsk Qrupunun rusiyalı həmsədri İqor Popov, fransalı həmsədri Stefani Viskonti və ABŞ-lı həmsədri Endryu Şofer, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik iştirak edib.

Qeyd edək ki, görüşdə müzakirə olunan detallarla bağlı tərəflər rəsmi məlumat verməyib. Ancaq görüş astanasında bir sıra nüfuzlu xarici nəşrlər görüşdə müzakirə olunacaq mövzularla bağlı fikirlərini yazıblar. Həmin məlumatların əksəriyyətində qeyd edilir ki, xarici işlər nazirlərinin görüşündə yalnız Madrid prinsipləri müzakirə mövzusu ola bilər. Rusiya nəşrinin yazdığına görə, görüşdə Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı geniş məsələlərə toxunulacaq. Söhbət əvvəlki kimi Madrid prinsipləri adı ilə məşhur olan nizamasalma planından gedir. "Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı danışıqlar, həmişə olduğu kimi, yüksək məxfilik rejimində aparılır. Nazirlərin dəqiq nə söyləyəcəkləri və nəyin müzakirə ediləcəyi məlum deyil. Duman danışıqlardan sonra belə dağılmır - danışıq aparanlar ümumi sözlər və qeyri-müəyyən qiymətləndirmələrlə keçinirlər", - deyə qəzet yazır.

Bütün təhlillərin nəticəsi də göstərir ki, tərəflər arasındakı danışıqlar son mərhələyə kimi bu prinsip əsasında davam etdirilib. Ancaq maraqlıdır ki, Ermənistanın Baş naziri Nikol Paşinyan son açıqlamsında Madrid prinsipləri ilə bağlı razılaşmanı ələ salan mövqe sərgilədi. Hətta qeyd etmişdi ki, həmin plan keçmiş hakimiyyətdən ona "miras" qalıb. Paşinyan bilir ki, 7 rayonun qaytarılması Madrid prinsiplərinin bünövrəsidir. Düzdür, Paşinyanın belə bəyanatı öz rəqiblərinin nüfuzunu aşağı salmağa hesablanıb. Ancaq əks effekti verdi. Çünki müxalif partiyanın funksionerləri onu top atəşinə tutdular. Açıq şəkildə bəyan etdilər ki, Ermənistana rəhbərlik etmiş bütün prezidentlər münaqişənin həllində güzəşt variantını məqbul sayıblar. "Respublikaçılar" bildiriblər ki, yaxşı



olar ki, Paşinyan əlinin altında olan plana yaxşı baxsın. Bununla onlar demək istəyiblər ki, Paşinyan hakimiyyətinin özü də danışıqları Madrid prinsipləri əsasında aparır. Hazırda Ermənistan Xarici İşlər nazirinin görüşdə iştirakı bunun sübutu sayılır. Vaxtilə ATƏT-in Minsk Qrupunun həmsədrləri də Madrid prinsipləri barədə fikirlərini səsləndiriblər. Məzmun belə idi ki, rayonlar Azərbaycana qaytarılır, müvəqqəti olaraq Laçın dəhlizi saxlanılır, sülhməramlılar daxil olur, köçkünlər öz evlərinə qayıdır, ikinci mərhələdə Dağlıq Qarabağın statusu ilə bağlı referendum keçirilməli idi. Referenduma texniki yanaşma müxtəlifdir.

**Aydındır ki, Paşinyan hakimiyyətini möhkəmləndirmək naminə müxtəlif ziddiyyətli bəyanatlar verir. Onun son bəyanatı da Mnatsakanyanın görüşdə iştirakı ilə daban-dabana ziddir. Bir daha görünür ki, Ermənistan hakimiyyətinin Dağlıq Qarabağ problemi ilə bağlı vahid mövqeyi və strategiyası yoxdur.**

*Məhəmmədəli* **QƏRİBLİ**

# 9 fevral seçkisinin nəticələrinə kölgə sala biləcək neqativlər və pozuntular oldumu?

**Ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı bir neçə mərhələ arxada qalıb. Hazırda həyata keçirilən təbliğat-təşviqat mərhələsi də bitmək üzrədir. Ümumən bu seçkilərin daha aktiv keçdiyi qənaətində olanlar çoxluq təşkil edir.**



## *Rauf Zeyni: "İndiyə qədər biz seçkilərin ümumi nəticəsinə təsir göstərə biləcək hər hansı bir neqativliyi qeydə almamışıq"*

Namizədlərin apardıqları təbliğat kampaniyalarından görünür ki, əksəriyyətin prosesdən narazılığı yoxdur. Bəzi dairələrdə namizədlər arasında müşahidə edilən kompromat savaşı və söz atışması seçki prosesinin pozulduğu anlamına gələ biməz. Bəs maraqlıdır, bu müddət ərzində seçkinin nəticələrinə kölgə sala biləcək pozuntular olubmu?

Qeyd edək ki, burada söhbət seçki prosesinə kobud müdaxilələrdən gedir. Məsələn, namizədlərin qeydə alınması, təbliğat aparmasına imkan verilməməsi, hansısa namizədin xeyirinə inzibati imkanları tətbiq etməklə təbliğatın aparılması, hakimiyyət nümayəndələrinin hansısa namizədə açıq təzyiq göstərməsi, namizədliyin kiminsə xeyrinə geri götürülməsi üçün kimlərləsə sövdələşməyə getməyə məcbur olunması və digər neqativliklərdən söhbət gedir.

Seçki prosesini yaxından izləyən Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, seçkilər başlayandan bəri aparılan bütün kampaniyalar çox uğurla həyata keçirilib: "İndiyə qədər biz seçkilərin ümumi nəticəsinə təsir göstərə biləcək hər hansı bir neqativliyi qeydə almamışıq. Düzdür, xırda narazılıqlar ola bilər. Bu da dünyanın hər yeri üçün xarakterikdir. Söhbət ciddi qanun pozuntularından gedir. Bilirsiniz ki, indiki zəmanədə belə halları ört-basdır etmək də mümkün deyil. Çünki çəkiliş imkanları və onları ictimailəşdirmək üçün sosial şəbəkələr kimi məkan mövcuddur. Olsaydı, üzə çıxardı. Əminəm ki, proses sona qədər də bu cür demokratik şəraitdə aparılacaq. Hər hansı kiçik qanun pozuntusu olsa belə, onlara da qiymət veriləcək. Həmin hadisələr seçkilərin nəticələrinə təsir etmək gücündə deyil. Ölkə Prezidenti cənab İlham Əliyev də dəfələrlə xəbərdarlıq edib ki, hər hansı bir dövlət resurslarından namizədlərin xeyrinə istifadə etmək yolverilməzdir. Bunun məsuliyyətini yerli qurumlar və namizədlərin özü ciddi nəzərə alır. Bəzi namizədlər var ki, onlar suni şoular yaratmağa meyllidirlər. Özlərini gündəmə gətirmək üçün guya onlara təzyiq edildiyini bildirə bilərlər. Amma belə hallar çox cüzidir və ümumi nəticələrə təsiri ola bilməz. Bunu da əlavə edim ki, Azərbaycandakı seçkiləri çox nüfuzlu beynəlxalq təşkilatlar da müşahidə edəcəklər.

**Eləcə də biz QHT sektoru olaraq seçkilərin şəffaf keçirilməsi üçün müxtəlif növ monitorinqləri aparırıq. Əminəm ki, bu seçkinin nəticələri öz demokratikliyi ilə fərqlənəcək. Ölkə rəhbərliyi islahatların davamı kimi həm də yeni parlamentin formalaşmasını görürsə, onda bizə şəffaf seçkilər nəticəsində formalaşacaq parlament lazımdır".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Saatlı seçicilərindən deputat akademikə daha bir dəstək - "Əhliman Əmiraslanova səs verəcəyik"

*Kürdəmirli seçicilər də Əhliman Əmiraslanovdan vaz keçmək fikrində deyillər, "hamılıqla Sizə səs verəcəyik" dedilər*

**9 fevralda keçiriləcək Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi akademik Əhliman Əmiraslanov seçicilərlə görüşlərini davam etdirir.**



Əhliman Əmiraslanovun seçicilərlə növbəti görüşü Saatlı rayonunun Mustafabəyli kəndində baş tutub. Mustafabəyli kəndi ilə yanaşı, qonşu Qıraqlı, Bəylik və Yeni Novruzlu kəndlərinin sakinlərinin də iştirak etdiyi görüşdə seçicilər Əhliman Əmiraslanovu alqışlarla qarşılayıb.

Görüşə gələn seçicilərə təşəkkür edən Əhliman Əmiraslanov qeyd edib ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, respublikamızın bütün bölgələrində olduğu kimi, Saatlı rayonunda da sosial layihələrin həyata keçirilməsi davam etdirilir: "Sizlərin partiyamızın sədri, möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən əsaslı və genişmiqyaslı islahatların seçicilər tərəfindən diqqətlə izləndiyini və dəstəkləndiyini deməyiniz YAP tərəfindən irəli sürülmüş deputatlığa namizədlərin seçki kampaniyasının, eləcə də seçkinin nəticələrinin daha uğurlu olacağına bizdə əminlik yaradır".

Görüş zamanı çıxış edən seçicilər fevral ayının 9-da seçki məntəqələrinə gələcəklərini, yüksək fəallıq nümayiş etdirərək, hər bir problemlərinin həllində onların yanında olan Yeni Azərbaycan Partiyasının namizədi akademik Əhliman Əmiraslanova səs verəcəklərini bildiriblər.

Akademik Ə.Əmiraslanov deputatlığa namizəd olduğu 65 saylı seçki dairəsinə aid olan Kürdəmir rayonunun Qocalı kəndində də seçiciləri ilə görüşüb. Görüşdə Qocalı kənd sakinləri ilə yanaşı, Xəlsə, Beyi və Pirəköçə kəndlərdən olan seçicilər də iştirak edib. Görüşdə çıxış edən akademik Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızın bütün bölgələrində olduğu kimi Kürdəmir rayonunda da sosial layihələrin həyata keçirilməsini və ölkəmizdə əhalinin sosial rifahının getdikcə yaxşılaşdığını bildirib. Qeyd edib ki, görülən tədbirlərdən biri də vətəndaşlarımıza göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması üçün icbari tibbi sığorta sisteminin tətbiqidir. Əhliman Əmiraslanov, bununla belə, vətəndaşları narahat edən bəzi problemlərin də olduğunu qeyd edib. O, seçicilərin yenidən etimadını qazandığı halda, hər zaman olduğu kimi, bundan sonra da seçiciləri narahat edən məsələlərin Milli Məclisdə qaldırılması istiqamətində fəaliyyət göstərəcəyini, onların həlli naminə köməyini əsirgəməyəcəyini, hər zaman seçicilərinin yanında olacağını bəyan edib.

**Görüşdə çıxış edən seçicilər də öz növbəsində Ə.Əmiraslanovun deputat olduğu ötən illər ərzində seçicilərin hər hansı bir problemlə bağlı deputata müraciət etdikdə dərhal lazımi köməklik göstərildiyindən danışaraq, 9 fevralda yenidən hamılıqla Ə.Əmiraslanova səs verəcəklərini bildiriblər.**









# Vüqar Alkərəmovun İmişlinin Cəfərli, Qızılkənd və Sərxanlı kəndlərində də seçicilərlə görüşü izdihamlı oldu



**Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat - təşviqat kampaniyası çərçivəsində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən namizəd Alkərəmov Vüqar Oruc oğlunun seçicilərlə görüşləri davam edir.**

Vüqar Alkərəmovun növbəti görüşü İmişli rayonunun Cəfərli, Qızılkənd və Sərxanlı kəndlərində baş tutub. Yanvar ayının 27-də baş tutan izdihamlı görüşlərdə Vüqar Alkərəmov çıxış edib və sakinlərin problemləri ilə maraqlanıb.





# Onlar deputatlığa namizəd olmağı YAP-dan çıxarılmaqdan üstün tutdular...

## *Musa Musayev: ”Bəs onda niyə Elşad Abdullayev partiyadan uzaqlaşdırılmadı?”*

**Milli Məclisə fevralın 9-da keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) 200-dən çox üzvü fərdi qaydada deputatlığa namizədliyini irəli sürüb, onların bir qismi partiyadan çıxarılıb. Bu barədə açıqlamasında YAP icra katibinin müavini Siyavuş Novruzov bildirib.**

S.Novruzov deyib ki, YAP Siyasi Şurası və İdarə Heyəti tərəfindən partiyanın seçkilərdə iştirakı ilə bağlı qərar qəbul edilib: "Partiyanın İdarə Heyətinin 27 dekabr 2019-cu il tarixli qərarı ilə partiya tərəfindən 125 seçki dairəsindən 123-də deputatlığa namizəd irəli sürülüb. Partiya üzvlərinə də bu qərarda tövsiyə olunurdu ki, partiyanın qərarından kənar hər hansı şəxs partiya adından namizədliyini irəli sürə bilməz. Bununla bağlı rayon təşkilatları, ilk partiya təşkilatları tərəfindən partiya üzvləri arasında geniş işlər, söhbətlər aparıldı, hər bir YAP üzvünə partiyanın qərarı çatdırıldı. YAP Nizamnaməsinin 3-cü bölməsində partiyanın təşkilati prinsipləri və üzvlük qaydalarına dair birinci maddə var. Həmin maddəyə uyğun olaraq, YAP rəhbər orqanlarının qərarı bütün aşağı partiya təşkilatları və onların üzvləri üçün məcburidir. Həmçinin, həmin maddənin 3.7-ci hissəsində göstərilir ki, partiya üzvləri hər bir rəhbər orqanın qərarını yerinə yetirməyə borcludur. Bu qərarları yerinə yetirməyən şəxs partiyanın rəhbər orqanlarının qərarını yerinə yetirmədiyinə görə Nizamnamə tələblərinə uyğun olaraq partiya üzvlüyündən xaric edilir, xəbərdarlıq olunur, töhmət verilir".

YAP icra katibinin müavini qeyd edib ki, seçki kampaniyası çox ciddi aksiyadır: "Bu prosesdə partiyanın qərarları yekdilliklə yerinə yetirilməlidir. Burada gücün bir istiqamətdə qoyularaq partiyanın ümumi qələbəsinə sərf olunması lazımdır. Əlavə namizədliyini irəli sürən Azərbaycan Respublikasının vətəndaşları və YAP üzvləri var ki, vətəndaş kimi seçkidə iştirak etmək hüququndan istifadə edə bilər. Lakin onlar partiya üzvü olduqları üçün partiyanın rəhbər orqanlarının qərarlarını yerinə yetirməlidirlər. Bu baxımdan, YAP-ın 200-dən çox üzvü namizədliyini partiyanın rəsmi şəkildə irəli sürdüyü namizədlərə alternativ olaraq irəli sürdüyü üçün rayon təşkilatları, ilk təşkilatlar, partiyanın Mərkəzi Aparatı tərəfindən onlarla söhbətlər aparıldı. Nəticə etibarilə onların böyük qismi partiyanın ümumi siyasətini əsas götürərək, eyni zamanda, partiya üzvlüyü ilə bağlı Nizamnamə tələblərini dərk edərək namizədliyini geri götürdü. Bir qrup isə bu və ya digər şəkildə öz fikrində qaldı. Həmin şəxslər partiyanın ilk yerli təşkilatı, rayon təşkilatı tərəfindən partiya Nizamnaməsinin tələbinə uyğun olaraq, partiyanın rəhbər orqanlarının qərarını pozduqları üçün partiya sıralarından xaric olunublar. Bu gün üçün YAP-ı 123 seçki dairəsinin hər birində bir namizəd təmsil edir. Qalanları ilə bağlı isə Mərkəzi Seçki Komissiyasına qərarlarımızı təqdim etmişik və həmin şəxslər partiyanın adından istifadə etmək hüququndan məhrum olunublar".

Bizim də müşahidələrimiz göstərir ki, YAP-ın siyahısından kənar olaraq namizədliyini irəli sürən partiya üzvlərinin heç də hamısı partiyanın qərarına tabe olmayıblar. Siyavuş Novruzovun açıqlamasından bu fikrə gəlirik ki, həmin adamların qarşısında konkret şərt qoyulub. Ya namizədliyinin geri götürülməsi, ya da partiyadan çıxarılıb namizədliyə davam. İkincini seçənlər də olub. Deputatlığa namizəd olmağı YAP-dan xaric olmaqdan üstün tutan namizədlərin hərəkətinə hansı qiyməti verə bilərik?



Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Musa Musayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir addıma görə YAP-çıların partiyadan çıxarılmasının əleyhinədir: "Mən bu partiyanın yaradıcılarından biriyəm. Belə bir qərarın bizim Nizamnamədə olmasından xəbərim yoxdur. Əgər vardısa, onda niyə bütün seçkilərdə təmin edilməyib? Mən sizə bir misal çəkim. 2005-ci ildə YAP mənim namizədliyimi irəli sürmüşdü. Həmin vaxt mənim namizəd olduğum 8 saylı Binəqədi seçki dairəsindən 24 alternativ vardı. Onlardan biri də Beynəlxalq Universitetin rektoru Elşad Abdullayev idi. O vaxt Elşad Abdullayev YAP Binəqədi İdarə Heyətinin üzvü idi. Bəs onda niyə Elşad Abdullayev partiyadan uzaqlaşdırılmadı? Hətta həmin il 9 saylı Binəqədi seçki dairəsində keçirilən təkrar seçkilərdə partiya tərəfindən namizəd kimi irəli sürüldü. Mən mediada gördüm ki, Siyavuş Novruzov belə bəyanat verib ki, özbaşına namizədliyini irəli sürənlər partiyadan xaric edilsin. Mən Siyasi Şuranın üzvü kimi belə bir qərarın qəbul olunmasından xəbərsizəm. Hesab edirəm ki, hər bir şəxsin namizəd olmaq haqqına hörmətlə yanaşmaq lazımdır.

**Hər bir namizədin öz tərəfdarı var. Onların namizəd olması həm də seçici fəallığını artırardı. YAP çox nəhəng bir partiyadır. Bütün iddialıların namizədliyini partiya irəli sürmək imkanına malik deyil. Amma nəzərə alaq ki, siyahıdan kənarda qalan bəzi şəxslərin də belə iddiası ola bilər. Biz onları partiyadan çıxarmaqla həm də üzvlər arasında narazılıq yarada bilərik. Elə adam var ki, 1992-ci ildən partiyanın üzvüdür. Namizəd olmaq istəyinə görə onun partiyadan çıxarılması bir qədər anlaşılan deyil".**

*Məhəmmədəli*
*QƏRİBLİ*

# Trampın Fələstinə dair "Əsrin sülh planı" - ABŞ-ın Qarabağ vasitəçiliyinin gələcəyindən narahatlıqlar baş qaldırıb...

***Yeganə Hacıyeva:*** *"...ABŞ-a bir tərəfdaş dövlət olaraq güvənin azalmasına gətirib çıxarır"*

**ABŞ Prezidenti Donald Tramp "Twitter" hesabında irəli sürdüyü Yaxın Şərq sülh planında əks olunan gələcək Fələstin dövlətinin xəritəsini paylaşıb. ABŞ Prezidenti qeyd edib ki, həmişə İsrail dövləti və yəhudi xalqının yanında olacaq: "Onların təhlükəsizliyini və tarixi torpaqları daxilində yaşamaq hüquqlarını qəti şəkildə dəstəkləyirəm. Artıq sülhün vaxtıdır!".**

Donald Tramp onu da bildirib ki, "Əsrin sazişi" yeni Fələstin dövləti üçün 50 milyard dollar məbləğində investisiyaları təmin edəcək. Onun sözlərinə görə, çox sayda dövlət bu prosesdə iştirak etmək istəyir. "Praktik olaraq hamı istəyir ki, bu olsun", - o vurğulayıb.

Trampın fikrincə, "Əsrin sazişi" İsrail və Fələstinin qonşularının böyük dəstəyini alacaq.

O, həmçinin, əlavə edib ki, ABŞ planının reallaşdırılacağı təqdirdə 10 il ərzində "Fələstində işsizlik iki dəfə azalacaq".

Tramp Ağ Evdə İsrailin Baş naziri Binyamin Netanyahunun iştirakı ilə İsrail-Fələstin münaqişəsinin nizama salınması üzrə planı təqdim edib və bildirib ki, İsrail bu planı təcəssüm edərək fələstinlilərlə sülhə doğru böyük addım atır. Onun sözlərinə görə, fələstinlilər ən yaxşı həyata layiqdirlər, amma terror fəallığının tələsinə düşüblər.

ABŞ Prezidenti əlavə edib ki, Yaxın Şərq üzrə nizamasalma planı 80 səhifədən ibarətdir. Bu, həmin məsələdə ən dolğun sənəddir.

Tramp onu da bildirib ki, bu plana əsasən, Qüds İsrailin bölünməz paytaxtı olaraq qalacaq: "Bu plana əsasən, Qüds bölünməz paytaxt qalacaq, bu çox əhəmiyyətlidir".

ABŞ dövlət başçısı, həmçinin, əlavə edib ki, ABŞ Şərqi Qüdsdə fələstinlilər üçün öz səfirliyini açacaq: "Bu xəritə Şərqi Qüdsdə fələstinlilərin paytaxtı ilə Fələstin ərazisini ikiqat artıracaq, harada ki ABŞ qürurla özünün səfirliyini açacaq".

Qeyd edək ki, Fələstin dövlət başçısı Mahmud Abbas dünyanın hər hansı yerindən hər hansı razılaşmanı qəbul etməyəcəklərini bildirərək, ikidövlətli həll yoluna sadiq olduqlarını bir daha dilə gətirib.

Abbas İngiltərənin xarici işlər naziri Dominik Raab ilə keçirdiyi telefon danışığında beynəlxalq qərarlar istiqamətində sülhün yaranmasına və bu çərçivədə müzakirələr keçirilməsinə hazır olduqlarını bildirib.

Tramp rəhbərliyinin açıq şəkildə İsrail tərəfgirliyi etdiyinə diqqət çəkən Abbas "ABŞ-ın təkbaşına siyasi həll yolunda rol oynamasını qəbul etməyəcəyik" ifadəsini işlədib.

Fələstin Dövlət Rəhbərliyinin sözçüsü Nəbil Ebu Rudeyne də Ərəb və İslam ölkələri səfirlərinə Fələstin xalqının hüquqlarını qəsbetmə və paytaxtı Şərqi Qüds olan Fələstin dövlətinin qurulmasına mane olmağı məqsəd götürən Trampın sözdə sülh planının açıqlanacağı mərasimdə iştirak etməməyə çağırıb.

Fələstin Xarici İşlər Nazirliyi də Ərəb Dövlətləri Liqasına sözdə sülh planını müzakirə etmək üzrə xarici işlər nazirləri səviyyəsində fövqəladə yığıncağa çağırıb.

Göründüyü kimi, Trampın Fələstinlə bağlı mövqeyi nəinki fələstində, eləcə də bütün Ərəb dünyasında etirazla qarşılanıb. Qeyd edək ki, Trampın təklif etdiyi layihə BMT-nin 1948-ci ildə Fələstinlə bağlı qəbul etdiyi qətnamələrlə tam ziddiyyət təşkil edir. Bir sözlə, Tramp bu mövqeyi ilə bütün dünyaya və BMT-yə meydan oxumuş olur. Bəs belə mövqe ABŞ-ın digər münaqişələrdəki vasitəçilik missiyasına necə təsir edəcək? Onun neytral və obyektiv ölkə olmaq imicini dağıtmış olacaqmı?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ Prezidenti Donald Trampın "Əsrin sövdələşməsi" çərçivəsində İsraillə Fələstinin yeni xəritəsini paylaşması ciddi rezonans doğurub: "Öncə onu qeyd edim ki, ABŞ Prezidenti Donald Trampın İsrailin Baş naziri Benyamin Netanyahu ilə birgə açıqladığı Orta Şərqdə 100 illik "Əsrin sövdələşməsi" planındakı təklifi beynəlxalq hüququn tələblərinə cavab vermir. 80 səhifəlik plan bütünlükdə mediaya təqdim olunmasa da, açıqlanmış müddəalardan Trampın bu təşəbbüsünün münaqişənin həlli üçün BMT Baş Assambleyasının və hətta BMT Təhlükəsizlik Şurasının tələblərinə cavab verməməsi aydın olur. BMT-nin Təhlükəsizlik Şurası da daxil olmaqla, BMT və bütün institutları İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həll olunması üçün mövqeyi ikidövlətli həll prinsipinin vacibliyini vurğulayır.

Məsələ ondadır ki, beynəlxalq hüquq və müasir dünyada sülhün və təhlükəsizliyin qarant institutu kimi BMT-nin Yaxın Şərqdə sülhün davamlı və ədalətli olması üçün həm İsrailin, həm də Fələstinin ehtiyaclarının nəzərə alınması mövqeyini bölüşsə də, sərhədlər və mərkəz anlamında beynəlxalq hüququn bəlli prioritetlərini dəstəkləyir.

BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurası Fələstin xalqının öz müqəddəratını həll etmə, milli müstəqillik və suverenlik hüquqlarını tanıyır və bütün dövlətlərə və beynəlxalq təşkilatlara Fələstin xalqına onun təbii hüquqlarını bərpa etməsi üçün tam dəstəyini ifadə edir.



Daha öncə qeyd etdiyim kimi, BMT-nin hər iki qurumu münaqişədə ikidövlətli həllin tək çarə olduğunu irəli sürür. Ancaq onu da qeyd edim ki, BMT Təhlükəsizlik Şurasının İsrailin beynəlxalq humanitar hüquq və insan hüquqları normalarını pozduğuna dair bir neçə qətnaməsi mövcuddur.

Bu mövzuda narahatedici məqam BMT-nin üzvü olan ABŞ-ın BMT Baş Assambleyasının və TŞ-nin qərarlarını birtərəfli qaydada vecinə almamasıdır.

Məsələ ondadır ki, ABŞ-ın bir neçə platformada dünyanın bir çox regionunda konflikt nizamlayıcı missiyalarda həmsədr, vasitəçi, təşəbbüsçü və sair statuslarda fəaliyyəti mövcuddur.

**ABŞ-ın beynəlxalq hüququn müddəaları və BMT-nin Baş Assambleyası, Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymaması onun digər sülh nizamlayıcı missiyalarında fəaliyyətinin obyektivliyi və tərəfsizliyini şübhə altına atır. Bu məqamla, həmçinin, ABŞ-ın beynəlxalq səviyyədə qərəzsiz və ya tərəfsiz əməkdaşlığı şübhə altına alınır ki, bu da özlüyündə ABŞ-a bir tərəfdaş dövlət olaraq güvənin azalmasına gətirib çıxarır".**

*Məhəmmədəli QƏRİBLİ*

**Son günlərdə ABŞ prezidenti Donald Tramp yenidən dolların güclü olmasından şikayətlənməyə başlayıb. O, Federal Ehtiyat Sisteminin Açıq Bazar Əməliyyatları Komitəsinin iclası fonunda qurumu uçot dərəcəsini azaltmağa çağırıb. Dövlət başçısı müraciətini "Twitter" səhifəsində yazıb:**

# Tramp dövlətlərin iqtisadiyyatına dağıdıcı "dollar yürüşü"nə başlayır, Azərbaycan da hədəflərdən biridir...



"Federal Ehtiyat Sistemi, ağıllı ol və Avropa ölkələri ilə rəqabətə davamlılığı artırmaq üçün faizi endir".

Bir neçə gün əvvəl də Tramp yerli telekanallardan birinə müsahibəsində dolların güclü olmasından şikayətlənib. İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumunda iştirak edən Tramp CNBC-yə müsahibəsində bildirib ki, dollar çox güclü və qüdrətlidir: "Bu, qulağa gözəl gəlir, bir çox tərəfdən yaxşıdır, ancaq emal sektoru nəzərə alındığında çox pisdir". O qeyd edib ki, faizlər daha da aşağı salınmalıdır: "Dolların güclü olmasını istəyirəm, dolların çox güclü olmasını istəyirəm. Dolların müdhiş olmasını istəyirəm. Ancaq faizləri salsanız, çox-çox yaxşı olacaq". O, güclü dolların dünya ölkələrini ABŞ-la ticarətdən çəkindirdiyini bildirib. Tramp qeyd edib ki, Federal Ehtiyat Sisteminin sərt monetar siyasəti dolların güclənməsinə təsir göstərsə də, ABŞ-ın rəqabətə davamlılığına zərbə vurub: "Güclü dolların tərəfdarıyam. Lakin bu dolların ölkəmizin xeyrinə olmasını istəyirəm",

Xatırladaq ki, ötən il Federal Ehtiyat Sistemi uçot dərəcəsini 3 dəfə endirib. Özü də bunlar Trampın təzyiqi ilə baş verib. İndi də bu təzyiq nəticəsində analoji durumun yaranması istisna olunmur. Bu fonda cari il ərzində dolların müəyyən qədər dəyərdən düşməsi tamamilə gözlənilən sayılır. Hesab edilir ki, belə vəziyyətdə Azərbaycan manatı üzərində də təzyiqlər artacaq. Manatın dollara nisbətdə möhkəmlənməsi baxımından milli valyutaya təzyiqlər getdikcə artır. Buna neft gəlirlərində tutmuş ölkənin ixracının artması, turizm və digər sektorlar üzrə valyuta daxilolmalarının çoxalmasına kimi çoxsaylı amillər təsir edir. Eləcə də dünya maliyyə bazarlarında baş verənlər, xüsusən də dolların uçot dərəcəsinin azalması kimi faktorlar da bu prosesə ciddi təsir edir. Federal Ehtiyatlar Sisteminin bundan sonra da uçot dərəcəsini azaltması fonunda isə manata təzyiqlərin daha da artması qaçılmaz sayılır. Aydındır ki, ABŞ yenidən uçot dərəcələrini endirmək istiqamətində addımlar atsa, dollar dünya bazarında, eləcə də Azərbaycanda əhəmiyyətli dərəcədə ucuzlaşa bilər. Bunun qarşısı isə yenə Mərkəzi Bankın müdaxiləsi ilə alına bilər.

İndilikdə görünən budur ki, ölkənin baş bankı dollar-manat məzənnəsinin sabit qalması istiqamətində fəaliyyət göstərməli olacaq. Çünki 2020-ci il üçün dövlət büdcəsində manat- dollar məzənnəsinin 1.7 səviyyəsində olması nəzərdə tutulur. Maliyyə Nazirliyinin Azərbaycanın 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərində məhz bu hədd nəzərə alınıb. Amma baş verənlər manatın güclənməsinə xidmət edir. Yəni il ərzində manatın məzənnəsinin güclənməsi üçün təzyiqlər olacaq. Buna təsir edəcək əsas amillərdən biri isə elə neftin qiyməti ilə bağlıdır. Xatırladaq ki, bu il üçün büdcədə neft qiyməti 55 dollardan götürülüb. Amma baş verən bir çox hadisələr, xüsusən də OPEC+ ölkələrinin fəaliyyəti neftin qiymətinin ən azından daha yüksək həddə qalacağını göstərir. O da faktdır ki, OPEC+ ölkələri də bazardakı payını saxlamaq üçün neftin qiymətinin azı 60 dollar ətrafında olmasını məqbul hesab edir və bu istiqamətdə fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edək ki, hasilatın pay bölgüsünə uyğun olaraq Azərbaycanda da neft hasilatının artımı hələlik proqnozlaşdırılmır. Azərbaycan mövcud neft hasilatını qoruyub saxlamağa çalışan ölkələrdən biridir və bu istiqamətdə OPEC+ ölkələri ilə sıx əməkdaşlıq edir. Belə vəziyyət neftin qiymətini yüksək həddə saxlamağa bəs edir.

Deməli, Azərbaycanın neft gəlirləri yenə nəzərdə tutulduğundan yüksək olacaq və bu da manata əlavə təzyiq yaradan faktorlardan sayılır. Yüksək qiymət Azərbaycana daxil olan valyutanın da həcminin əhəmiyyətli dərəcədə artımı deməkdir. Artan valyuta da, öz növbəsində, manat üzərində təzyiqin daha da artmasına rəvac verir. Digər tərəfdən əhali də əlindəki dolları manata çevirir. Əks-dollarlaşma prosesinin başlanması həm də indiki halda real sektora sərmayələrin cəlb edilməsi baxımından olduqca vacibdir. Belə vəziyyət isə manatın mövqelərini daha güclü hala gətirir.

***Ramil QULİYEV***

**Dünyanın siyasi gündəminin ən əsas mövzularından biri, heç şübhəsiz, ABŞ prezidenti Donald Trampın "əsrin sazişi" adlandırdığı sülh planıdır. Belə görünür ki, bu plan əslində Yaxın Şərqdə yeni qarşıdurmaya rəvac verəcək. Ən azı o baxımdan ki, "əsrin sazişi"nə yanaşma tamam fərqlidir.**

# Tramp "Əsrin sazişi" ilə Yaxın Şərqi dəhşətli müharibə alovuna atdı, Fələstin, İran, Türkiyə qəti "yox" dedi...



Xüsusən də Qüdsün İsrailin bölünməz paytaxtı olaraq Tramp tərəfindən gündəmə gətirilməsi məsələni kifayət qədər qəliz bir müstəviyə sürükləyib.

Onu da qeyd edək ki, Tramp tərəfindən "əsrin sazişi"olaraq xarakterizə edilən Yaxın Şərq sülh planının müzakirəsi üç il müddətində gündəmdə olsa da, müxtəlif səbəblər üzündən hər dəfə təxirə salınırdı. Amma bu dəfə plan elan olundu. Tramp bildirir ki, plana əsasən Qüds İsrailin bölünməz paytaxtı olaraq qalacaq:"Bu plana əsasən, Qüds bölünməz paytaxt qalacaq, bu çox əhəmiyyətlidir". O bildirib ki, ABŞ Şərqi Qüdsdə fələstinlilər üçün öz səfirliyini açacaq: "Sülh planı əsasında təqdim etdiyim xəritə Şərqi Qüdsdə fələstinlilərin paytaxtı ilə Fələstin ərazisini ikiqat artıracaq, harada ki, ABŞ qürurla özünün səfirliyini açacaq". Tramp vurğulayır ki, "əsrin sazişi" yeni Fələstin dövləti üçün 50 milyard dollar məbləğində investisiyaları təmin edəcək. O deyib ki, çox sayda dövlət bu prosesdə iştirak etmək istəyir: "Praktik olaraq hamı istəyir ki, bu olsun". Trampın fikrincə, "əsrin sazişi" İsrail və Fələstinin qonşularının böyük dəstəyini alacaq. Əlavə edib ki, ABŞ planı reallaşdırılacağı təqdirdə 10 il ərzində Fələstində işsizlik iki dəfə azalacaq.

Artıq İsrailin baş naziri Benyamin Netanyahu Vaşinqtonda Trampla birgə mətbuat konfransında Ağ Ev rəhbərinin sülh planı əsasında fələstinlilərlə danışıqlar aparmağa hazır olduğunu bildirib: "Mən bu sülh planı əsasında Fələstin tərəfi ilə danışıqlar aparmağa razıyam. Fələstinlilər İsrailin yəhudi dövləti kimi tanınmasına hazırdırsa, İsrail dərhal sülh haqqında danışıqlara başlamağa hazırdır". Netanyahunun sözlərinə görə, Trampın təklif etdiyi "əsrin sazişi" münaqişənin kökünə - İsrailin fələstinlilər tərəfindən yəhudi dövləti kimi tanınması zəruriliyinə işarə edir. İsrail Nazirlər Kabinetinin başçısı Ağ Ev rəhbərinə müraciətində deyib: "Bu gün siz parlaq gələcəyə, israillilər, fələstinlilər və region üçün parlaq gələcəyə, uzunmüddətli sülhə həqiqi yol göstərdiniz". ABŞ-ın BMT-dəki keçmiş diplomatı Nikki Heyli bildirib ki, "əsrin sazişi"ndə prioritet məsələ İsrailin milli təhlükəsizliyidir. Bu fonda qarşı tərəfin məsələyə reaksiyası fərqlidir. Belə ki, Fələstin rəhbəri Mahmud Abbas ABŞ-ın Yaxın Şərq üzrə nizamasalma planını sui-qəsd adlandırıb. Bu barədə o, Fələstin Televiziyasının birbaşa yayımında çıxış edərkən bildirib: "Qüds satılmır və sizin sui-qəsdiniz keçməyəcək. Biz Fələstin xalqının tarixi haqlarına məhəl qoymamağa imkan verməyəcəyik, biz paytaxtı Qüds olan Fələstin dövlətinə sadiqik".

Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da məsələyə sərt reaksiya sərgilənib. Burada qeyd olunur ki, Ankara İsrailin işğalına və təqibinə haqq qazandırmaq üçün atdığı addımlara icazə verməyəcək:"ABŞ-ın qondarma sülh planı öldü. Bu plan ikidövlətli həll yolu və Fələstin torpaqlarını qəsb etmək məqsədi daşıyan işğal planıdır. Fələstin xalqı və torpaqları pulla alınmır. Qüds qırmızı xəttimizdir. Həmişə qardaş Fələstin xalqının yanında olacağıq. Bu ərazilərdə müstəqil Fələstin üçün işlərimizi davam etdirəcəyik. Fələstinin qəbul etməyəcəyi hər hansı bir planı dəstəkləməyəcəyik. İşğal siyasətinə son qoyulmadan Yaxın Şərqə sülh gələ bilməz". Məsələ ilə bağlı Fələstin rəhbəri Mahmud Abbas və HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə arasında da telefon danışığı olub. HƏMAS lideri Trampın "əsrin sazişi"nə qarşı çıxıb və bu planın Fələstin milli layihəsinin ləğv edilməsini hədəf seçdiyini bildirib. Haniyə bütün fikir ayrılıqlarını bir kənara qoyub, Fələstin milli layihəsini ləğv etmək planına qarşı çıxmağa səsləyib.

İran xarici işlər naziri Məhəmməd Cavad Zərif də Trampın Yaxın Şərq konfliktinin həlli ilə bağlı elan etdiyi sazişi sərt formada tənqid edib. O bunu sayıqlama adlandırıb. Zərif İranın Ali dini lideri Əli Xamneinin İsrail-Fələstin konflikti ilə bağlı təkliflərinin nəzərə alınmasının vacibliyini bildirib. Xarici İşlər Nazirliyinin rəsmisi Abbas Musəvi isə qeyd edib ki, İsrail-Fələstin münaqişəsi ilə bağlı ABŞ tərəfinin irəli sürdüyü sülh planı iflasa uğrayıb və İran buna qarşı hərəkətə keçməyə hazırdır: "Bu kimi pis niyyətli layihələr uğursuzluğa məhkumdur". Bütün bunlar fonunda "əsrin sazişi"nin əslində Yaxın Şərqdə əsrin konfliktinə gətirib çıxara biləcəyi istisna olunmur. Çünki Fələstini müdafiə edənlər məsələyə ən sərt formada reaksiya verməyə hazır olduqlarını bəyan edirlər. Bura silahlı müqavimət də daxildir.

***Nahid SALAYEV***

# Ermənilər özlərinə saxta tarix yazdıqları vaxtda Akademiyanın Tarix İnstitutunda Deportasiya şöbəsini kim və niyə ləğv etdi...

**Azərbaycan xalqının yaşadığı deportasiya və soyqırım aktları tariximizdən qanlı xətlə keçir. XX əsrdə erməni daşnakları tərəfindən başımıza gətirilən soyqırım və deportasiya aktları unudulmamalı, xalqımıza qarşı olan bu qanlı terror xüsusi mərkəzlər, elmi qurumlar tərəfindən dərindən araşdırılmalı, tədqiq edilməli, kitablar şəklində hazırlanıb müxtəlif dillərdə elektron resurslarda yerləşdirilməlidir.**




***Şöbənin sabiq əməkdaşı:*** *"İqrar Əliyev rəhmətə getdikdən sonra akademik Yaqub Mahmudov Tarix İnstitutuna direktor oldu və həmin dövrdə institutda bəzi şöbələrin bağlanması..."*

***Natiq Məmmədzadə:*** *"Deportasiya və Soyqırım şöbəsinin ləğv edilməsi, əslində, sırf texniki məsələlər idi"*

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və deportasiya tarixinin araşdırılması ən ümdə məsələlərdən biridir. Vaxtilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda görkəmli tədqiqatçı, tarix elmləri namizədi İsrafil Məmmədovun rəhbərliyi ilə Deportasiya və Soyqırım şöbəsi fəaliyyət göstərirdi, indi sözügedən institutda bu adda şöbə yoxdur. Heç bir şəraiti olmayan buz kimi otaqda fəaliyyət göstərən şöbənin açılmasında məqsəd ermənilərin XX əsrdə xalqımıza qarşı etdiyi mənfur əməllərin qaynağının, nəticələrinin araşdırılması idi.

Ləğv edilmiş Deportasiya və Soyqırım şöbəsinin adının çəkilməsini istəməyən keçmiş əməkdaşlarından biri bizimlə söhbətində bildirdi ki, mərhum professor Vaqif Arzumanlının rəhbərlik etdiyi Beynəlxalq Münasibətlər İnstitutu ləğv edildikdən sonra onun əməkdaşları akademiyanın müxtəlif institutlarında yerləşdirilib, onların bir qismi isə həmin dövrdə akademik İqrar Əliyevin rəhbərlik etdiyi Tarix İnstitutunun müvafiq şöbələrində işlə təmin edilib. Həmin dövrdə isə Deportasiya və Soyqırım şöbəsi yaradılır və İsrafil Məmmədov bu şöbəyə müdir təyin edilir. Buna səbəb kimi İ.Məmmədovun erməni dilini yaxşı bilməsi və Ermənstanda müxtəlif vəzifələrdə işləməsi, bu yöndə tədqiqat işləri aparması göstərilir. Yəni o, mütəxəssis olduğu üçün bu şöbəyə rəhbərlik ona tapşırılıb. Hətta İ.Məmmədov AMEA-nın Rəyasət Heyətində çıxış edərək tədqiqat işlərinin daha da genişləndirilməsinin, soyqırım və deportasiya tarixi ilə bağlı ayrıca muzey yaradılmasının və abidə qoyulmasının vacibliyini qeyd edirdi. Amma bu reallaşmayıb. "İqrar Əliyev rəhmətə getdikdən sonra akademik Yaqub MahmudovTarix İnstitutuna direktor oldu və həmin dövrdə institutda bəzi şöbələrin bağlanması barədə qərar qəbul edildi və nəticədə Deportasiya və Soyqırım şöbəsi bağlandı. İqrar Əliyevin rəhbərliyi dövründə yaradılan Deportasiya və Soyqırım şöbəsinin Yaqub Mahmudovun rəhbərliyi dövründə bağlanması bu gün də tarixçilər arasında suallarla qarşılanır" - deyə bildirən keçmiş şöbənin keçmiş əməkdaşı qeyd etdi ki, Deportasiya və Soyqırım şöbəsininin müəmmalı şəkildə bağlanması, yaxud şöbənin heç onunla əlaqəsi olmayan şöbə ilə birləşdirilməsi ciddi narazılıq yaratsa da, buna qarşı açıq etiraz edənlər az olub.

Ermənilərin özlərinə saxta tarix yaratdıqları bir dövrdə, o saxta tarixləri haqqında cild-cild saxta araşdırmalar aparılması, kitablar yazılması üçün böyük elmi mərkəzlər, institutlar yaratdıqları bir vaxtda AMEA-nın Tarix İnstitutunda Deportasiya və Soyqırım şöbəsinin müstəqil şöbə kimi ləğv edilərək başqa bir şöbəyə birləşdirilməsinə nə ad vermək olar? Əslində, deportasiyaya və soyqırıma məruz qalan bir xalq olaraq deportasiya, soyqırım tarixini araşdıran şöbələr, xüsusi mərkəz və institutlara sahib olmalıyıq. 2003-cü ildən sonra qapadılan bu şöbə bir də müstəqil şöbə kimi "Azərbaycan xalqına qarşı soyqırımları tarixi şöbəsi" adı altında bir də 2015-ci ildə açılıb. Təxminən 12 il bu şöbə fəaliyyət göstərməyib. Tarixçinin verdiyi məlumata görə, ölkə üçün çox böyük strateji əhəmiyyəti olan bir şöbənin vaxtilə ləğv edilməsi deportasiya və soyqırımlar tarixinin daha mükəmməl, məzmunlu şəkildə yazılmasına əngəl oldu. Bu mövzularda kitabların yazıldığını, tədqiqatların aparıldığını deyən müsahibimiz qeyd etdi ki, amma uzun müddət bu iş pərakəndə şəkildə görüldü.

Akademiyanın Tarix İnstitutunun "Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Natiq Məmmədzadənin sözlərinə görə isə Deportasiya və Soyqırım şöbəsinin ləğv edilməsi sırf texniki məsələ idi: "Deportasiya və Soyqırım şöbəsinin ləğv edilməsi, əslində, sırf texniki məsələlər idi. Əslində, bu şöbə bağlanmamışdı, Demoqrafiya və əhali tarixi şöbəsinin tərkibində soyqırım tarixləri üzrə qrup fəaliyyət göstərirdi. Sonra isə 2015-ci ildə şöbə yeni adla bərpa olundu. Əvvəl soyqırımlar və deportasiya tarixləri üzrə qrup adlandırılırdı, 2015-ci ildə isə "Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsi adlandırıldı. Bu şöbəyə hər şey daxil oldu. Deportasiyalar da soyqırım siyasətinin tərkib hissəsi olduğundan, artıq deportasiya sözünü vurğulamağa ehtiyac olmadı. Azərbaycan xalqına qarşı soyqırım və deportasiyanın bütün təzahürləri, tarixi hadisələr, qətliamlar, deportasiya aktları və s. bütün bu qəbildən olan məsələlər bu şöbədə araşdırılır".

Ləğv edilən Deportasiya və Soyqırım şöbəsinin əvvəlcə qrup şəklində, sonra isə müstəqil şöbə kmi fəaliyyət göstərdiyini deyən müsahibimizn sözlərinə görə, bu şöbə 1998-ci ildə Heydər Əliyevin qərarından sonra yaranmışdı. Bu şöbənin Y.Mahmudov tərəfindən bağlanmasına dair məlumatlara gəlincə, N.Məmmədzadə bunu təkzb etdi. O bildirdi ki, şöbəni Y.Mahmudov bağlamayıb: **"Bu şöbənin Yaqub Mahmudov tərəfindən bağlanması tamamilə yanlış məlumatdır. Söhbət konkret şəxsiyyətlərdən getmir, obyektiv münasibətdən, yanaşmadan gedir. Əksinə, o, 1918-ci ildə baş verən hadisələrin soyqırım kimi qiymətləndirilməsində böyük rol oynayıb. Bir də elə məsələlər var ki, onlar AMEA-nın Rəyasət Heyəti tərəfindən gəlir".**

O, həmçinin, vurğuladı ki, istənlən elmi-tədqiqat institutunda hansısa bir şöbənin yaradılması, yaxud bağlanması haqqında qərarı institut rəhbərləri yox, AMEA-nın Rəyasət Heyəti verir.

N.Məmmədzadə vurğuladı ki, şöbədə soyqırımlar və deportasiyalar tarixinin öyrənilməsi istiqamətində böyük işlər görülür, kitablar nəşr edilir.

***İradə SARIYEVA***

# İrəvanın mərkəzində azərbaycanlılarla bağlı son tarix yadigarlarını da məhv edirlər - ermənilərin "açıq muzey" oyunu...

## *İsmayıl Tanrıverdi: "Onlar bu "muzeyi" ona görə yaradırlar ki..."*

**İrəvan şəhərinin tarixini saxtalaşdıraraq onu "Erabuni" kimi təqdim edən ermənilər dünyanın diqqətini cəlb etmək üçün yeni bir qondarma işə əl atıblar. Dünyaya "Erabuninin 2800 yaşı var" deyə car çəkən ermənilər bununla kifayətlənməyərək İrəvanda açıq səma altında muzey yaradırlar.**

Artıq 6 mərtəbədən ibarət olacaq muzeyin maketi də hazırlanıb, həmin maketin fotoşəkilləri erməni mediasında yayılıb.

İrəvanın tarixi mərkəzində, İrəvan xanlarına aid məkanda ermənilərin belə bir muzey layihəsi təqdim etməsi təəccüb doğurmasa da, onların bizim tarixi şəhərimizdə, buradakı abidələrə qarşı həyata keçirdikləri kütləvi saxtakarlıq əməlləri bizi qıcıqlandırmaya bilmir. Ermənistanın Baş naziri Nikol Paşinyanın göstərişi ilə hazırlanan "muzey" layihəsində saxta Erabuni şəhərinin mənzərəsi "canlandırılıb". Türk əsilli İrəvan xanlarına aid olan tikililərin xarabalıqları üzərində qurulması nəzərdə tutulan bu "muzey"in yaradılmasında məqsəd heç kəsə gizlin deyil, onlar bununla İrəvanın tarixini saxtalaşdırmaq, onun İrəvan deyil "Erabuni" olduğunu dünyaya təqdim etmək, bu yalana turistləri inandırmaq istəyirlər.

Qeyd edək ki, ermənilərin bu mənfur planını Azərbaycanda ifşa edən və onların yaratmaqda olduqları muzeyin tamamilə saxtakarlıq nümunəsi olduğunu sosial şəbəkələr vasitəsilə ermənilərin özlərinə çatdıran BDU-nun Erməni Araşdırmaları Elmi-Tədqiqat və Tədris Mərkəzinin böyük elmi işçisi İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər kütləvi olaraq İrəvanın tarixini saxtalaşdırmaqla, buradakı türk abidələrini dağıdıblar, dağıtmadıqlarını isə "fars mədəniyyəti" adı ilə təqdim etməkdə davam edirlər. "İrəvan saxtakarlığı sevmir, amma ermənilər isə saxta tarixsiz yaşaya bilmirlər. Ermənilər "Erabuni"nin tarixini "qədimlər"ə aparmaq üçün dəridən-qabıqdan çıxırlar. İrəvanın mərkəzi meydanında ermənilərin açıq səma altında "muzey" layihəsinin hazır olduğunu bu ölkənin mətbuatı yazmışdı. Ermənilərin İrəvanın mərkəzi meydanında İrəvan xanlarına aid olan 1650-1670-ci illərdə tikilmiş Zal xan məscidi, Zal xan hamamı və Zal xanın bir sıra başqa məkanları üzərində "açıq səma altında muzey" yaratmaq planlarına səssiz qalmamalıyıq. Həmin dövrdə İrəvan xanı olan Abbas xanın kürəkəni Zal xan İrəvan hakimi olub. İrəvanın mərkəzi meydanında olan yeraltı və yerüstü tikililər ona məxsusdur. Orada üçmərtəbəli məscid olub və o məscid İrəvanın ən hündür, görkəmli məscidi olub. Hətta 1946-cı ilə qədər ermənilər həmin məscidin binasından sərgi salonu kimi istifadə ediblər. Məscidin gümbəzini uçurdublar və təmir edərək burada sərgi salonu açmışdılar. Sonra isə bu binanı yerlə yeksan ediblər. Zal xana aid olan tikililərin bəzilərinin xarabalıqları qalıb. Ermənilər qərara gəliblər ki, indi İrəvanın mərkəzi meydanında həmin muzeyi yaratsınlar və o saxta maketi də ora qoysunlar. Paşinyanın göstərişi ilə artıq bu saxtakarlıq işlərinə başlanıb. Onu da deyim ki, "muzeyin" yaradılacağı mərkəzdəki tikililərin qalıqlarının qədim erməni abidələri adı ilə bərpa olunaraq xarici turistlərə sırınması da nəzərdə tutulur. Onlar bu "muzeyi" ona görə yaradırlar ki, İrəvanın 2800 yaşlı bir şəhər olduğunu dünyaya sübut etsinlər. Daha doğrusu, saxta, tarixdə olmayan Erabuni şəhərinin tarixini "qədimləşdrməyə" çalışırlar. Amma bunun üçün 100 yaşı olan bir obyekt belə tapa bilmirlər, bu da onları qıcıqlandırır. Tarixi bilənlər bilir ki, İrəvanın əsası Şah İsmayıl Xətainin tapşırığı ilə Rəvanqulu xan tərəfindən 1510-cu ildə qoyulub. Ermənilərin "təpədən tapdıqları Erabuni"nin müəllifi isə Akopyan soyadlı bir erməni alimidir. O bu "qədim daşı" 1948-ci ildə "tapıb". Orada basdırılan saxta daşın üzəri mixi əlifbası ilə yazılmışdı, həmin Akopyan adlı professor gedib Misirdə mixi əlifbasını öyrənib. Mənbələrin birində qeyd edilir ki, həmin daşı Gədəbəydən gətirib orada basdırıblar, digər mənbənin məlumatına görə isə Qarsdakı Axtamar kilsəsindən gətiriblər. Hətta bu daşı gətirənlərin içində Akopyanla yanaşı, Amerkadan gələn erməni alimi də olub. Hətta bu saxtakarlıq haqqında erməni alimlərinin özləri də yazıblar. Daşı basdırdıqdan on il sonra bu daşı çıxarıb üstündə işləyiblər. Məndə olan dəqiq məlumata görə, ermənilər o vaxt görüblər ki, gürcülər Tiflisin 1500 illiyni qeyd edir, onlar da həmin vaxt İrəvanın tarixini saxtalaşdırmağa başlayırlar və onlar "elə edək ki, İrəvanın tarixi Tiflisin tarixindən qədim olsun" deyib, o daşı üzə çıxarırlar".

Ermənilərin məqsədinin yeni yaranmış UNESCO-da qədim "Erabuni" şəhərini qəbul etdirmək olduğunu deyən İ.Tanrıverdinin sözlərinə görə, qurumun ekspertləri bura gəlir, lakin onlar "Erabuni"ni UNESCO-ya qəbul etmirlər. "Ermənilər "qədim daşı" UNESCO-ya, eləcə də digər təşkilatlara göstərirlər, lakin heç bir qurum onu qəbul etməyib. Həmin daşın baş hissəsində erməni professor mixi əlifbası yazıb ki, burada Argiştnin oğlu Erabunu olub. Bu da sonradan yazılma olduğu üçün ekspertlər onu qəbul etməyiblər. Ermənilər "Erabuni"nin tarixini Romanın tarixindən 30 il əvvələ, Moskvanın tarixindən isə on dəfə qədimə yazırlar. Bu saxta tarixi ermənilər uydursalar da, bu saxta şəhəri UNESCO-ya daxil edə bilmirlər".



*"Paşinyanın göstərişi ilə artıq bu saxtakarlıq işlərinə başlanıb"*

İ.Tanrıverdi vurğuladı ki, ermənilər Mikoyan vasitəsilə keçmiş SSRİ Mərkəzi Komitəsinin birinci katibi Xruşşovdan Erabuninin yubileyinin keçirilməsinə icazə verməsin xahiş edirlər. Xruşşov da buna razılıq verir və 1968-ci ildə onlar "İrəvanın 2750 illiyini" bütün SSRİ miqyasında keçirirlər.

"Ermənilər İrəvanın mərkəzində yaratmağı planlaşdırdıqları açıq səma altındakı muzeydə təqdim ediləcək eksponatların heç biri onlara məxsus deyil, onlar qədim alban mədəniyyəti örnəkləridir. Onlar bu muzeyə xaçqarları, eləcə də digər nümunələri qoyacaqlar. Ermənilər İrəvanın mərkəzi meydanında yaratmağı planlaşdırdıqları muzey erməni saxtakarlığının növbəti bir təsdiqidir. İrəvanın mərkəzi meydanında Rəvan xanlarına aid tikililərin hər birinin fotoşəkli bizdə var və biz o fotoları çap etmişik. Mən o şəkilləri ermənilərə də təqdim edirəm ki, bu tikililər bizim xanlara aiddir və onların da hərəsinin 300 yaşı var, bu halda onları necə 2800 yaşlı tikili kimi təqdim edirsiniz. Ermənilər burada saxta abidələr düzəldib, saxta eksponatlar yaradıb onların "2800 yaşlı abidələr" olduğunu göstərəcəklər. Bu muzeydə saxtakarlıqla yaradılan nümunələr təqdim ediləcək" - deyə İ.Tanrıverdi qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycan qazı Bolqarıstan üçün də həyat mənbəyinə çevrildi

**Real vəziyyətin təhlili göstərir ki, bu gün bir sıra Avropa ölkələri enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycana daha çox bel bağlamağa başlayıb. Belələrindən biri Bolqarıstandır. İstifadə olunan qazın, demək olar, hamısını Rusiyadan idxal edən Bolqarıstan ilin sonuna qədər bu həcmin yarısını digər mənbələrdən almaq niyyətindədir.**




Bu ölkənin energetika naziri Temenujka Petkovanın ABŞ-a işgüzar səfəri çərçivəsində də qeyd olunan məsələ xüsusi diqqət mərkəzində olub. Bura nazir bildirib ki, Bolqarıstan ölkəyə təbii qaz idxalı üzrə mənbələrini və marşrutlarını şaxələndirməyə davam edəcək: "Bolqarıstan və ABŞ arasında mayeləşdirilmiş təbii qaz (LNG) sahəsində geniş əməkdaşlıq var. İlin sonuna qədər təbii qaz istehlakının 50%-i şaxələndiriləcək. Ölkədəki ümumi təbii qaz istehlakının - 3 milyard kubmetr - yarısı Azərbaycandan qaz tədarükü (TAP qaz kəməri ilə) və LNG tədarükü yolu ilə şaxələndiriləcək". Qeyd edək ki, ötən ilin iyun ayında Bolqarıstan ABŞ-dan ilk LNG partiyasını alıb. 2019-cu ilin sonunda ümumi tədarük həcmi, təxminən, 0,5 milyard kubmetr maye qaz təşkil edib. Onu da xatırladaq ki, Azərbaycan qazı, o cümlədən "Şahdəniz" qaz-kondensat yatağının ikinci mərhələsindən hasil edilən qaz Bolqarıstanda TAP-a qoşulacaq və bu boru vasitəsilə "Şahdəniz" yatağının ikinci mərhələsindən qazı Avropa bazarlarına çatdıracaq boru kəməri vasitəsilə tədarük olunacaq. Birinci mərhələdə qaz boru kəmərinin buraxılış gücü 3 milyard kubmetr təşkil edəcək ki, bunun 2,7 milyard kubmetri uzunmüddətli bazarlara, 0,3 milyard kubmetri isə qısamüddətli bazarlara yönəldiləcək. İkinci mərhələdə, bazarın inkişafından asılı olaraq, əlavə kompressor stansiyası sayəsində boru kəmərinin həcmi 5,3 milyard kubmetr qaza qədər artırıla bilər. 4,5 milyard kubmetr qaz uzunmüddətli bazarlara, 0,5 milyard kubmetr qaz isə qısamüddətli bazarlara yönəldiləcək.

Xatırladaq ki, söhbət burada Azərbaycan təbii qazını Bolqarıstana nəql edəcək Yunanıstan-Bolqarıstan qaz interkonnektorundan gedir. Ötən il bu kəmərin təməli qoyulub. Xatırladaq ki, Yunanıstanın Komotini şəhərindən Bolqarıstanın Stara Zagora şəhərinədək uzanacaq Yunanıstan-Bolqarıstan qaz interkonnektoru 182 kilometr ümumi uzunluğa malikdir. Bu ildən etibarən Azərbaycandan həmin kəmər vasitəsilə illik 1 milyard kubmetr qazın nəqli nəzərdə tutulur ki, bu da Bolqarıstanın təbii qaza olan tələbatının 30%-ni təşkil edəcək. Amma Azərbaycan qazı təkcə Bolqarıstan üçün əhəmiyyət kəsb etmir. Reallaşdırılan "Cənub Qaz Dəhlizi" bütün Cənub-Şərqi Avropa üçün strateji əhəmiyyət daşıyır. Ümumiyyətlə, "Cənub Qaz Dəhlizi" layihəsi Avropanın enerji təhlükəsizliyinə Azərbaycanın verdiyi böyük töhfə və nailiyyət sayılır. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin hissələri "Şahdəniz-2" qaz yatağı, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələridir.

İndilikdə isə Rusiyanın "Şimal axını-2" layihəsi ilə gözlənilməz dəyişikliklər fonunda Şərqi Avropa ölkələri məhz "Cənub Qaz Dəhlizi"nə getdikcə daha çox maraq göstərir. Burada hesab olunur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayacaq, çünki təkcə tədarükçü kimi yox, həm də Qazaxıstan və Türkmənistan qazının tranzit ölkəsi kimi çıxış edəcək. Azərbaycanın bu fonda artan rolunu etiraf edən ölkələrdən biri də Sloveniyadır. Sloveniyanın sabiq prezidenti Danilo Türk bu xüsusda bildirir: "TAP-TANAP və bütövlükdə "Cənub Qaz Dəhlizi"nə gəlincə, Sloveniya Avropaya qazın çatdırılması üzrə bu layihəyə marşrut cənub istiqamətindən keçdiyi üçün qoşulmayıb. Layihədə Türkiyə, Yunanıstan, Albaniya və Cənubi İtaliya iştirak edir. Sloveniya isə İtaliyanın şimal hissəsinə daha yaxındır. Amma kim bilir, bəlkə gələcəkdə bu boru kəmərinin əhəmiyyəti artacaq. İndi onlar Sloveniyanın cənubundakı ölkələrdən keçir, lakin gələcəkdə bizim də onlara maraq göstərəcəyimiz istisna deyil. Biz Sloveniyanın şimalından və cənubundan hansı qaz kəmərlərinin keçdiyinə biganə deyilik. Hazırda biz qazı Avstriyadan tranzit keçməklə Rusiyadan, eləcə də İtaliya vasitəsilə Əlcəzairdən alırıq. İndi isə cənub istiqamətindən Avropaya Azərbaycan qazı gələcək. Təbii ki, bu, Avropada qaz bazarının ümumi mənzərəsinə təsir edən yeni bir amil olacaq. Sloveniyanın iki təbii qaz mənbəyi var - Rusiya və Əlcəzair. Rusiya qazı Ukrayna, Macarıstan və Avstriyadan keçir. Başqa bir qaz boru kəməri İtaliya vasitəsilə Sloveniyaya Əlcəzairdən gedir.

Lakin biz qaz tədarükünün şaxələndirilməsində maraqlıyıq və bu strateji kontekstdə "Cənub Qaz Dəhlizi"nin tətbiqi Sloveniya üçün vacibdir". Bir məqamı da qeyd edək ki, Çexiya, Macarıstan, Slovakiya, Balkan ölkələri, Yunanıstan kimi ölkələrin illik qaz ehtiyacları elə də yüksək deyil və 3-4 milyard kubmetr təşkil edir. Bu fonda TANAP və TAP vasitəsilə bütün Cənubi Avropanı, üstəgəl İtaliyanın bir hissəsini qazla tam təchiz etmək mümkündür. Avropa Komissiyasının yüksək vəzifəli şəxsləri dəfələrlə bəyan edib ki, Azərbaycan etibarlı və uzunmüddətli qaz təchizatçısıdır. İndidən dəfələrlə bəyan edilir ki, TANAP-TAP kəmərləri qazın tədarükü sahəsində diversifikasiya mexanizmidir.

***Tahir TAĞIYEV***

# Rusiyanın nəhəng "Transsibir" dəmir yolu Azərbaycanın Bakı-Tiflis-Qars xətti ilə birləşdirilir...

**Məlum həqiqətdir ki, bu gün şimal qonşumuz Rusiya üçün Azərbaycanla iqtisadi əməkdaşlığı inkişaf etdirmək böyük önəm kəsb edir. Bu fonda tərəflər arasında artıq xeyli sayda yeni saziş imzalanıb. İndilikdə isə görünən budur ki, Rusiya Azırbaycanla əməkdaşlığı daha da dərinləşdirməkdə maraqlıdır.**




Bura, xüsusən də nəqliyyat sahəsi aiddir. Kreml ilk növbədə "Transsibir" dəmir yolu xəttini Bakı-Tiflis-Qarsla əlaqələndirərək ticarət dövriyyəsini artırmağı düşünür.

Rusiyalı ekspert İvan Pyatibratov indilikdə bunun ölkəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Onun fikrincə, "Transsibir" magistralı ilə Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xəttinin sinergiyası həm Rusiya, həm də Azərbaycan üçün sərfəlidir: "Rusiya barəsində danışırıqsa, ilk növbədə siyasi mənada üstünlükləri qeyd etmək lazımdır. Daha əvvəl bəzi ekspertlərin Rusiya ərazisindən keçmədiyinə görə "anti-Rusiya" layihəsi kimi qiymətləndirdiyi BTQ dəhlizi "Transsibir" ekosisteminə daxil olacaq. Bu, Rusiyanın Yaxın Şərqdəki təsirini, eləcə də Rusiya ilə Azərbaycan arasındakı qarşılıqlı fəaliyyəti gücləndirir. Çünki dövlətləri yürüstü ticarət əlaqələrindən çox birləşdirən mal yoxdur. Rusiya, hətta BTQ üçün relslərarası məsafəsi daha çox olan dəmir yolları tikməyə hazırdır. Bu isə Rusiyanın həmin əməkdaşlığa real marağını göstərir". Onun sözlərinə görə, Azərbaycan üçün "Transsibir" magistralına inteqrasiyanın iqtisadi üstünlükləri var: "Əvvəllər BTQ-nin rentabelli olması yük dövriyyəsinə görə sual doğurursa, hazırda bu sual aradan qalxıb. Həmçinin bu, sərfəli və nüfuzludur. BTQ layihəsi əvvəlcədən Çin məhsullarının Qərbə ixracını həyata keçirmək üçün düşünülmüşdü və artıq öz məqsədi üzrə fəaliyyət göstərəcək. Çünki "Transsibir" magistralının dövriyyəsində Çin məhsulları üstünlük təşkil edir. Asiyadan Avropaya ən qısa marşrutun Azərbaycan ərazisindən keçməsinə baxmayaraq, dəniz yolu və Rusiya üzərindən uzunmüddətli daşımalar təcrübəsi tədarükçüləri ənənəvi marşrutlardan istifadə etməyə meylləndirir. Buna görə də müntəzəm mal axınının nə vaxt başlayacağı ilə bağlı sual tamamilə BTQ-dən istifadənin rahatlığı ilə məsələlərin həllindən asılı olacaq. Amma məsələyə Rusiyanın da qoşulması prosesi mütləq sürətləndirəcək. Bu, əlbəttə ki, hadisələrin əhəmiyyətli inkişafıdır, çünki belə "burulğanlı" dövrdə, Yaxın Şərqin geosiyasi əhəmiyyəti böyüyən zaman Rusiya ilə Azərbaycanın birlikdə hərəkət etməsi çox vacibdir".

Məsələyə digər prizmadan yanaşan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun aparıcı elmi işçisi Nikolay Silayev isə bildirir ki, Azərbaycanın iqtisadi imkanları Rusiyanın bu ölkə ilə əməkdaşlığını genişləndirməsində xüsusi rol oynayır. O, indiki halda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərəflərə əməkdaşlıqda yeni mühüm imkanlar yaratdığını da vurğulayır: "Azərbaycanın ərazisindən dəhlizin Rusiya və İranı birləşdirən dəmir yolu hissəsi keçir. Bundan daha vacib olanı isə odur ki, Azərbaycanın ərazisində faktiki olaraq "Şimal-Cənub" dəhlizinin və Türkiyə istiqamətində olan dəmir yolunun birləşməsi baş verir. Bu mənada, Azərbaycanın "Şimal-Cənub" layihəsindəki rolu çox əhəmiyyətlidir. Dəhlizlə əlaqədar ümumi durumdan asılı olmayaraq, Azərbaycanı Rusiya ilə birləşdirən dəmir yolunun modernizasiyası iki ölkə arasındakı ticarətə böyük impuls verəcək. Elə həm də həmin infrastrukturun inkişafı ilə əlaqədar olaraq ixrac imkanlarının artması nəticəsində son zamanlar Rusiya bazarında Azərbaycan malları xeyli çoxalıb. Azərbaycanın tranzit rolu əhəmiyyətli dərəcədə artacaq. Belə ki, "Rusiya Dəmir Yolları" ASC ilə artıq Bakı-Tiflis-Qars dəhlizindən istifadə ilə bağlı razılaşma var". Ekspert Rusiyanın Bakı-Tiflis-Qarsa marağının artmasını hər iki ölkə üçün vacib sayır. O qeyd edir ki, Rusiya Bakı-Tiflis-Qarsın "Transsibir" dəmir yolu xəttilə birləşdirilməsində indi olduqca maraqlıdır. Hesab edilir ki, bu, Avrasiya regionunda malların daşınması və tranziti baxımından çox vacib addımdır. Digər tərəfdən, Bakı-Tiflis-Qars xətti Şərqdən Qərbə və əksinə malların tranziti baxımından "Transsibir" yolunun əhəmiyyətini xeyli artırır. Bundan əvvəl Rusiya Dəmir Yolları İdarəsinin baş direktoru Oleq Belozyorov "Transsibir" dəmir yolu xəttilə Çindən Azərbaycana konteyner tranziti üzrə müntəzəm sistemin yaradılmasını, eləcə də Bakıda müvafiq distribütor mərkəzinin yaradılmasını vacib saydığını açıqlamışdı. Xatırladaq ki, artıq Rusiya ilə Azərbaycan arasında Bakı-Tiflis-Qars dəmir yolunun infrastrukturundan istifadə edilərək, "Şimal-Cənub" dəhlizi, eləcə də Rusiya-Azərbaycan-Türkiyə marşrutu üzrə nəqliyyat axınının artırılmasına dair əməkdaşlıq haqqında memorandum imzalanıb.

Maraqlıdır ki, Bakı-Tiflis-Qars dəmir yolu bir vaxtlar Çindən malların qəbulu baxımından "Transsibir" dəmir yolu xəttinə ciddi rəqib kimi qiymətləndirilirdi. Lakin bir müddət sonra Rusiya öz məhsullarını Türkiyə bazarına daha tez ixrac etmək, bu ölkənin Aralıq dənizindəki limanlarına çıxış qazanmaq məqsədilə Bakı-Tiflis-Qars xəttindən istifadə etmək qərarına gəldi. İndi isə bu xüsusda əməkdaşlığın daha da genişləndirilməsi Moskvanın xüsusi diqqət mərkəzində yer alır.

***Tahir TAĞIYEV***

# Sənədsiz evlərin sənədləşdirilməsi üzrə Prezidentin tapşırığı necə icra olunur - Bakı "meriyasının" mövqeyi...

**Azərbaycanda sənədsiz torpaq sahələrinin və evlərin dövlət reyestrinə daxil edilməsi problem olaraq qalır. İllərdir həlli mümkün olmayan məsələ sanki dalana dirənib. Ölkə başçısı İlham Əliyev bu problemin aradan qaldırılması məqsədilə zaman-zaman müxtəlif sərəncamlar imzalayıb və icrası üçün lazımi qurumlara göstərişlər verib.**



## *Bakı Şəhər İcra Hakimiyyəti: "Sənədsiz evlərlə bağlı işlər rayonlarda və mərkəzdə davam edir"*

Məlumat üçün bildirək ki, Bakı və onun ətrafında sənədləşmə aparılmadan tikilən fərdi evlərin sayı yüz minlərlədir. Xüsusilə 2000-ci illərdə Bakı ətrafında bəzi məlumatlara görə, 700 mindən yuxarı belə ev inşa olunub. Bundan əlavə, Bakı kəndlərində Sovet dövründən tikilmiş evlərin çoxunun da "kupça"sı yoxdur.

Hətta bu yaxınlarda Prezident İlham Əliyev həyət evlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında müvafiq qurumlara tapşırıqlar verdi.

Sənədsiz evlərin sənədləşməsi ilə bağlı vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün Bakı Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxladıq.

*"Sənədləşmə işinin yekunlaşması ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə məlumat daxil olmayıb"*

Bakı Şəhər İcra Hakimiyyətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, sənədsiz evlərlə bağlı işlər rayonlarda və mərkəzdə davam edir: "Hələ ki, sənədləşmə işinin yekunlaşması ilə bağlı məlumat daxil olmayıb.

**BŞİH-i söküləcək binalarla bağlı məlumat verib. Qeyd edilib ki, keçən il Nazirlər Kabinetinin qərarı ilə 17 bina sökülməli idi. Ünvanları da məlum idi. Demək olar ki, əksəriyyəti sökülüb. Vətəndaşlar da köçürülüb. Harada ki, bina tikiləcək ona uyğun danışıqlar aparılır. Bu il isə qəzalı binalarla bağlı qərar hələ verilməyib".**

*Günel CƏLİLOVA*

# İnşası illərdir yarımçıq qalmış tikililərin hərrac satışında alıcılar olacaqmı...

**Son zamanlar ölkədə tikinti şirkətlərinin sayının azalması yeni binaların inşasına marağın azalmasından xəbər verir. Şəhərin müxtəlif ərazilərində inşası natamam olan binalar var. Həmin binaların istifadəyə yararsız olması həm təhlükəsizlik, həm də o binadan mənzil sahibi olmaq üçün vətəndaşların müəyyən məbləğdə vəsait ödəyərək indiyədək mənzillərinə köçə bilməməsi baxımından acınacaqlıdır.**



## *Nüsrət İbrahimli: "O normanı keçirsə, təbii olaraq, artıq müvafiq qaydalar çərçivəsində tədbirlər görülməlidir"*

Həmin şəxslər mənzillərinin nə vaxt təhvil veriləcəyini gözləyirlər. Lakin binaların inşasının tamamlanmaması üzündən vətəndaşlar pulunu verib aldıqları mənzillərə köçə bilmirlər. Bu da onların hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur.

Bu səbəbdən də inşası bitməyən tikililərin hərraca çıxarılmasl təklif olunur.

Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli bildirdi ki, tikintinin müəyyən bir müddəti var. Bu da tikinti normalarına əsasən həyata keçirilməlidir: "Əgər o normanı keçirsə, təbii olaraq, artıq müvafiq qaydalar çərçivəsində tədbirlər görülməlidir. Yəni tədbir ondan ibarətdir ki, müəyyən bir müddət əzrində yerli icra hakimiyyəti tərəfindən xəbərdarlıq olunmalıdır. Digər tərəfdən, onun hər hansı həll oluna biləcək problemi varsa, tikintinin sona çatdırılması üçün tədbir görülməli və ya dəstək göstərilməlidir. Yox, həll oluna bilməyən problemdirsə, layihə qiymətləndirilib hərraca çıxarılmalıdır ki, yarımçıq tikilinin inşası digər şirkət tərəfindən başa çatdırılsın".

*"...hərraca çıxarılmalıdır ki, tikilinin inşası digər şirkət tərəfindən başa çatdırılsın"*

Həmsöhbətimiz onu da vurğuladı ki, yarımçıq qalmış binaların dövlət tərəfindən müsadirə olunması qanunvericiliyə ziddir: "Çünki bu, sahibkarlıq subyektinə qarşı təzyiq hesab edilir. Onların taleyi məsələsi istənilən halda ikitərəfli razılaşma əsasında həll olunmalıdır. Çünki həmin binalar şəxsi mülkiyyətdir.

Azərbaycanda bazar münasibətləri formalaşdığından, yarımçıq binalarla bağlı administrativ idarəetmə formalarına əl atmaq düzgün olmazdı. Lakin Rusiyada olduğu kimi, həmin tikililərin hərraca çıxarılaraq satılması mümkündür. Təbii ki, dövlət də əhalinin keyfiyyətli mənzillərdə yaşamasında maraqlıdır".

*Günel CƏLİLOVA*

# Lerikin Aküşəpeştə kənd sakinləri "qan ağlayır"...




**Aküşəpeştə Lerik rayonunun ucqar dağ kəndi olmaqla, ərazicə çox da böyük deyil. Bərəkətli torpaqları, saf havası, zəhmətsevər, qonaqpərvər, etibarlı adamları ilə yaxşı ad qoyub. Burada hansı qapını açsan, səmimiyyət görərsən, qabağına bol süfrə açarlar.**

Onlar müstəqil Azərbaycanın hərtərəfli inkişafına ürəkdən sevinir, dövlət başçısına, onun apardığı xarici, daxili siyasətə böyük inam göstərirlər. Gileyləri isə yalnız rayon rəhbərlərinin bu yaşayış məntəqəsinə, eləcə də ətraf kəndlərə biganə münasibətindəndir. Bu yerdə kənd sakinlərinin dediklərinə baxaq.

Güləli Quliyev kəndin ən hörmətli ağsaqqal ziyalısıdır. Uzun illər müəllim işləyib, öz peşəsinin şərəfini uca tutmaqla bərabər, ictimai işlərdə fəal olmaqla el-obanın tərəqqisində böyük zəhmət sərf edib. Güləli müəllim deyir:- Bu gün Azərbaycanın öz dinamik inkişafı ilə dünya birliyində nüfuz qazanmasına, sivil və modern dövlətlərlə bir sırada durmasına bizim camaat da sevinir. Bəli, Prezident İlham Əliyevin gecə-gündüz yorulmadan çalışması hər bir vətəndaşın azad, firavan yaşaması üçündü. Qaldı ki, Lerikdə rəhbər vəzifədə olanların gözləri özündən başqa heç kimi görmür. Nəticədə kəndlərdə həlli vacib olan sosial problemlər ilbəil qalaqlanır. Aküşəpeştə kəndi də belə. Dövlət əraziyə rahat yol çəkib. İctimai nəqliyyatın yoxluğu üzündən ara sürücülər başımıza oyun açır. Bir manatlıq yolu on manata gedirik. Haçan gəldi kəndin işıqları söndürülür. On ildir mavi qaz məsələmiz yubadılır. Yanacaq qıt olduğu üçün şaxtalı qış günlərində daha çox əziyyət çəkirik. Başqa problemlərimiz də var. Hələ bu vəziyyət rayon rəhbərlərinə çatmır. Öz Prezidentinə inanan camaat isə hər şeyə dözür...

Kənd sakini Bəhruz Qafarov:- Baxanda, respublikamızda böyük quruculuq işləri görülür. Vətəndaşların rahatlığı üçün yeni-yeni sosial layihələri həyata keçirilir.

Bizim dağ kəndində isə əksinədir. Sosial problemlərin əlindən çətin vəziyyətdə qalmışıq. Gündəlik qayğıları daim üzərimizdə hiss edirik. Bu da əsasən rayon rəhbərlərinin günahıdır. Kəndimizin qaz problemi həllini tapmadığı üçün qış bizə çətin olacaq. İndi ümidi tək ölkə rəhbərinə bağlamışıq. O öz xalqının qayğısı ilə yaşayır. Təəssüf ki, səsimiz ona çatmır.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**"Erməni riyakarlığı ana bətnindən doğulub..."**
**(Eqişe Abqaroviç Soqomonyan-Çarents (1897-1937,erməni şairi, nasiri və tərcüməçisi, erməni ədəbiyyatının klassiki).**
**"Ermənilərin həqiqi qurtuluşu mənən təmizlənmədən başlaya bilər, çünki biz mənəviyyatca xəstəyik..."**
**(Ovanes Tadevosoviç Tumanyan (1869-1923, erməni şairi, yazıçısı və ictimai xadimi).**
**"Ermənistan yalanlar, böhtanlar ölkəsidir..."**
**(Qevorq Volodyaeviç Petrosyan (1972), Ermənistan parlamentinin deputatı,**
**"Çiçəklənən Ermənistan" partiyasının və "Tsarukyan" fraksiyasının üzvü .)**

# İbtidai protohay sürüsünün bioloji-genetik və morfo-struktur dəyişikliyində Şərqi Afrika amili

**(XIV məqalə)**



Şərqi Afrika təbii-coğrafi ərazisi dünya-bəşər sivilizasiyasının ən qədim insanların yaşayış məskəni kimi həm də ibtidai insanların qəbilə-icma halında minilliklər boyu məskunlaşma məkanına çevrilib. O cümlədən, ibtidai protohay qəbilə-icma birlikləri, onların ayrı-ayrı dəstə və qrupları bu cür əski insan ocaqlarında uzun və qısa zaman dayanacaqlı miqrasiya xətti üzrə hərəkət edib, çoxsaylı yerli, dominant, aborigen xalqlarla, köklü qəbilə və icmalarla qaynayıb-qarışaraq (təbii amil təsirləri ilə yanaşı bioloji-genetik, morfoloji-fizioloji struktur yeniliyi qazanmaqla) həm də fərqli irqi-gen daşıyıcılarına çevriliblər.

Məhz bu baxımdan diqqət çəkən məqamlardan biri də ibtidai protohay insan sürüsünün Şərqi Afrikada assimilyasiya prosesində iştirak edən qəbilə-tayfa birlikləri zənci irqinin nümayəndələri ilə yanaşı, bu ərazilərə Ərəbistan yarımadasından köçüb gələn tayfalar da böyük rol oynayıb. Bu baxımdan tarixi faktlar (hadisələr) aşağıdakı kimi təkraralanıb.

Qədim Misir hökmdarlarının (fironlarının) VI-XI sülaləri dövründə Ərəbistan yarımadasının cənubundan Qırmızı dənizi keçərək Nil çayının yuxarı axarlarında məskunlaşmış kuşi, xayova (hayova, xamava) və Somali yarımadasının şimalındakı amxara, avaş tayfalarına assimilyasiya olunan hayk (xayk), tiqr, tiqran, tiqrau... ibtidai insan sürüləri bir neçə yüzillikdə (minillik ərzində) kəskin bioloji-fizioloji dəyişikliklərə məruz qalıb.

İbtidai protohay sürüsünün genetik-qan və irqi-morfoloji strukturunun formalaşması mərhələsində (e.ə. III-I minilliklərdə) sabeyan və ya saba tayfalarının da (Bab-əl-Məndəb boğazından keçərək Mavi Nil çayı ilə Qırmızı dəniz arası səhra və quru çay vadilərində, çılpaq dağlıq və mağaralarda məskunlaşan) təsiri az olmayıb. Sonrakı dövrlərdə bu qəbilə-tayfa üzvləri həm də Həbəş hökmdarlarına güclü təsir qüvvəsinə malik olublar.

Rus tədqiqatçısı E.E.Dolqanov "Həbəş (Abissina) ölkəsi" (Tarixi oçerk) əsərində qeyd edir ki, sabeyan tayfaları həbəşlərin nəsil başlanğıcında həlledici rol oynamaqla yanaşı, eləcə də regionda bioloji-gen, irqi-qan daşıyıcısı kimi əhəmiyyət kəsb edib. Təsadüfi deyil ki, Şərqi Afrikanın dağlıq hissəsində Abissina dövləti Cənubi Ərəbistandan köçənlərin hesabına yaranıb. Ərəblərin və kuşitlərin Afrikanın şərqinə miqrasiyasına qədər ərazilərdə əsasən zənci qəbilə və tayfaları üstünlük təşkil edirdi. Nəticədə Misir hökmdarları onları ələ keçirmək və ordusunda döyüşçü kimi istifadə etmək üçün fasiləsiz hərbi yürüşlərə rəvac verib, e.ə. III-II minilliklərdə onlar Yuxarı Nil hövzəsinə sıxışdırılıb. Beləliklə, bu ərazilərdə Misir fironlarının XII sülalələrinin dövründə "fallax koloniyaları" yaradıldı ki, burada əski həbəş tayfalarından xasa, nairi, ani, tiqran, tiqr, tiqrau... qəbilə-tayfa üzvləri üstünlük təşkil edirdi.

Hətta II Tutmosun hakimiyyətində (XVIII sülalə, e.ə. 1492-1479-cu illər) qədim Misir əhalisinin sayının artırılmasında bu qəbilə-tayfalardan yararlanıblar.

Həbəşistan ərazilərinin Misir hökmdarları tərəfindən zəbt edilməsi onların Hindistanla dəniz ticarətinin yaradılmasına və iqtisadi əlaqələrin formalaşmasına imkan verib. Dəniz ticarətində fiziki-qul əməyinə daha çox ehtiyac olunduğundan, həm də Misir hökmdarı III Tutmosun dövründə (e.ə. 1486-1425-ci illər) Qırmızı dəniz sahillərində, Tana gölü sahillərində qiymətli ağac növlərinin daşınması və emalında, nadir metal yataqlarının axtarışında "fəllah koloniyaları"nın qüvvəsi geniş istifadə edilib. Protohay ibtidai insan sürüsünün dəniz yolu ilə Ərəbistan yarımadası və Hindistan limanlarında qul kimi görünməsi, oralarda məskunlaşmaları, ağac-oyma, metal-işlədilmə, ticarət işlərinə cəlb edilmələri (xüsusilə Misir hökmdarlarının XVIII-XXII sülalələri dövründə, e.ə. XV-VIII əsrlər) sonralar onların xələflərinin bu ölkələrlə genetik-qan bağlılığının möhkəmlənməsinə, bu sahədə öncüllük qazanmalarına, peşə seçimlərinə gətirib çıxarıb.

Misir hökmdarlarının ölkənin bütün sahələrində kütləvi şəkildə istifadə etdikləri protohay qəbilə-tayfa üzvlərinin cəmləşdiyi tarixi-coğrafi məkanlar sırasında Arma-Tana, sonralar Hayasa (Xayasa) adlanan inzibati-ərazi vahidləri də həm hərbi əməliyyatlarda, həm iqtisadi-ticarət, həm də dini təlimlərin təbliğində böyük önəm daşıyıb.

İbtidai protohay sürüsünün Şərqi Afrikada (Abissinada) məskunlaşdığı ərazilərdən biri də Aksum çarlığında (e.ə. VIII əsrdən VII əsrədək) sabeyan tayfalarının koloniyaları olub. Bu koloniyalar əsasən Misirdə Yunan-Roma hakimiyyətinin (e.ə. I minillikdə) ağır hərbi yürüşlərinin təsirinə məruz qalıb, ordu tərəfindən əsir götürülmüş tayfalar kimi hərbiləşdirilmiş dəstələrdə fillərə qulluq edilməsində, silah-sursat təchizatında fiziki-qul əməyinin mənbəyi olublar. Dinc şəraitdə isə onlar qiymətli daşların axtarışı və emalına, nadir ağac cinslərinin istifadəsinə, dini mərasimlərin keçirilməsində xidmət-qulluq, digər sənətkarlıq işlərinə... cəlb ediliblər.

Tarixi-coğrafi yazılı mənbələrdə qeyd olunub ki, qədim Misir hökmdarlarının Hindistanla sıx və genişlənən iqtisadi-ticarət əlaqələrinin yaranmasında da sabeyan tayfaları yaxından iştirak ediblər.

Aksum çarlığının ərazisinə əski Tıqrau (şimal hissə, Ras-Daşan dağlıq silsiləsi, 4533 m), mərkəz və cənub hissələri əhatə edən Aramiya (Oromiya) bolgələrinin sərhədləri müasir Şərqi Afrika, Cənubi Misir və Şimali Somali hüdudları daxil idi. Bu ərazilərin qəbilə və tayfalarının dilləri qədim həbəş dilinə yaxın və ya qohum olan sabeyan, akkad, protohay tayfalarının leksik-fonetik söz birləşmələrinə, ünsiyyətlərində oxşar tələffüz və ifadə tərzlərinə uyğun olub. Dilünsiyyət strukturunun, ilkin oro və antrotoponimlərinin formalaşmasından başqa, ibtidai protohay qəbilə-tayfa birliklərində dini dünyagörüşünün, ibadət təlimlərinin və mərasimlərinin əxz olunması mərhələsi də bu dövrə təsadüf edir.

Prothay tayfalarının assimlyasiyasının nüvəsini təşkil edən sabeyan tayfaları Aksum çarlığında məbədlərin tikintisində aparıcı qüvvə olub. Afrikanın şərq hissəsində Aksum bölgəsi Həbəşistanın dini mərkəzi hesab olunub, çar Ezan (e.ə. 325-356-cı illər, bacısı Suzanna) IV əsrin ortalarında xristianlığı qəbul edib, 1-ci olaraq Müqəddəs Məryəm məbədini inşa etdirib.

Sabeyan tayfalarının kastalarında əkinçilər, sənətkarlar, tacirlər çoxluq təşkil edib.

1990-cı illərdə Hindistanda arxeoloji qazıntılar aparılarkən çar Ezanın adı həkk edilmiş numizmatika nümunələri tapılıb, üzərində xaç işarəsi olmaqla, bu sikkələr arasında yüksək ticarət əlaqələrinin rəmzi ifadəsi kimi.

Bu çarlığın dövlət dili səviyyəsində olan qeez (qaaz) dili və bu dilə uyğunlaşdırılmış "Həzrəti-Musa peyğəmbərin 1-ci kitabı"ındakı ("Yaranış"da) hərflər hay və aksum əlifbalarının oxşarlığına bir sübutdur.

Maraqlıdır ki, bu barədə mülahizələrə həbəş mütəfəkkiri Zara Yakob (1600-1693) özünün "Tədqiqat" əsərində, onun şagirdi Vald Xeyvat eyniadlı traktında yer ayırıb.

Protohay sürüsünün Şərqi Afrika təbii-coğrafi şəraitinə və aborigen qəbilə-tayfa birliklərinə qaynayıb-qarışması e.ə. II-I minilliklərdə ibtidai hay qəbilə-tayfalarının (tiqran, tiqr, hayasa, ayk, nairi...) təşəkkülü ilkin olaraq aşağıdakı əsas istiqamətlər üzrə ifadə olunur:

- Həbəş dağlıq hissəsi, Omo çayı vadisi və Somali yarımadasının şimal, Qırmızı dənizin qərb sahilləri, Yuxarı Nil çayı hövzəsi... protohay ibtidai insan sürüsünün irqi-fizioloji, morfoloji-psixoloji strukturunun formalaşması;
- Şərqi Afrikanın ən qədim insan yaşayış ocaqları və əski qəbilə-tayfa birliklərinin ittifaqı protohay insan sürüsünün instinkt-bioloji gen kodunun yaranmasına, qan yaddaşı hüceyrələrinin qurulması;
- Həbəş, Misir, Ərəb, Yunan, Yəhudi və Hind xalqlarının kompleks təsiri ilə prothay sürüsünün həm də sosial-iqtisadi həyat tərzinin yaranması;
- Sonrakı dövrlərdə prothay ibtidai insan sürüsünün hay qəbilə-icma formasında idarəedilməsinin hay kilsəsinə tabe olunması.

Göründüyü kimi, yuxarıda sadalanan model-blok elementlərinin ayrıayrılıqda hərtərəfli elminəzəri tədqiqinə, hay sürüsünün yaranma və formalaşma mərhələlərinin tarixi-coğrafi şəraitinin təhlilinə ciddi ehtiyac var.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

**Çində koronavirusun yayılması ilə əlaqədar olaraq bu gün bir çox ölkə Çinlə əlaqələrini müvəqqəti olaraq dayandırıb. Artıq Azərbaycanda da koronavirusa qarşı müəyyən qabaqlayıcı addımlar atılıb. Nazirlər Kabinetində koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsinə dair məsələlər müzakirə edilib.**

***"Jasmin" restoranı:** "Öncəki aylarla müqayisədə müştərilərin sayında azalma var"*

***Çin restoranının sahibi - Bao Li Cun:** "Çin yeməklərinin hazırlanmasında istifadə olunan ərzaqların hamısı Azərbaycandan alınır"*

# Bakıdakı Çin restoranlarında vəziyyət necədir...

Koronavirus Çinin bir çox sahəsinə təsir göstərir. O cümlədən, Çin restoranlarının fəaliyyəti də sual altındadır. Virusun qeydə alındığı bölgədə Çin restoranlarının fəaliyyəti dayandırılıb. Ancaq nəzərə almaq lazımdır ki, Çin restoranları tək adıçkilən ölkədə deyil, dünyanın hər bir ölkəsində fəaliyyət göstərir. O cümlədən, ölkəmizdə də. Ölkəmizdə fəaliyyət göstərən Çin restoranlarına maraq yüksəkdir. Lakin son günlər Çində yayılan ölümcül koronavirus həmin restoranlara insanların münasibətini dəyişir.

Məlumdur ki, Çində yayılan dəhşətli virusla bağlı Azərbaycan hökuməti qabaqlayıcı tədbirlərin görülməsi haqqında tapşırıqlar verib.

Səhiyyə Nazirliyi Çin restoranlarına gedilməməsi haqqında əhaliyə xəbərdarlıq edib. Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva media nümayəndələrinə açıqlamasında deyib ki, insanlar bir müddət Çin restoranlarına getməsinlər: "Ümumiyyətlə, Çin qidalarından istifadə etməsinlər. Koronavirus barədə geniş araşdırmalar aparılanadək bu restoranlara getmək məsləhət deyil. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən təhlükənin olmaması barədə məlumat veriləndən sonra insanlar rahat şəkildə bu restoranların xidmətlərindən istifadə edə bilərlər".

Qeyd edək ki, Çin restoranında hazırlanan təamlar üçün lazım olan məhsullar məhz həmin ölkədən gətirilir. Belə bir anda əhalinin sağlamlığı



üçün həmin restoranlara vəziyyət sakitləşənə qədər gedilməməsinin tövsiyə edilməsi ekspertlər tərəfindən müsbət qarşılanır.

Ancaq Çin restoranlarında çalışanlar isə iddia edirlər ki, son günlər Çində yayılan və insanların ölümünə səbəb olan koronavirusla bağlı Azərbaycandakı restoranların sahibləri oradan məhsul gətirməyi dayandırıblar. Onlar məhsulları Avropadan və ya Bakının özündən aldıqlarını bildirirlər.

İnzibatçılar isə bildirirlər ki, virusa görə insanlar narahat olsalar da, onların müştəriləri azalmayıb.

Bakıda fəaliyyət göstərən Çin restoranlarından birinin sahibi Bao Li Cun bizimlə söhbətində bildirdi ki, restoranda təklif olunan menyuda əsasən Çin yeməkləri üstünlük təşkil edir. Lakin buna baxmayaraq, Çin yeməklərinin hazırlanmasında istifadə olunan ərzaqların Azərbaycandan alındığını iddia edir: "Bu ərzaqlardan bişirilən yeməkləri isə müştərilərə çinli aşpaz təqdim edir. Burada bizdə qorxu yoxdur. Burada hamısı Çin yeməkləridir. Ərzaqların hamısını Bakıdan alıram. Toyuq əti, mal əti, qoyun əti, ördək əti, lafşa, düyü, vəssalam".

"Jasmin" Çin restoranından öyrəndiyimiz məlumata görə, öncəki aylarla müqayisədə müştərilərin sayında azalma var: "Bizim həm yerli, həm də əcnəbi müştərilərimiz var. Lakin son bir ayda müştərilərimizin sayı azalıb. Bizim məhsullarımız da nisbətən yaxın ölkələrdən, şəhərlərdən gətirilir. Amma bu günədək heç vaxt Çindən məhsul gətirməmişik".

***Günel CƏLİLOVA***

**Ölkəmizdə tarix-memarlıq və arxeoloji abidələrin xeyli hissəsi müxtəlif bölgələrdə yerləşir. Xüsusən də Qədim Albaniya, ondan əvvəlki və sonrakı dövrlərə aid abidələr dağ kəndləri ərazisində və yaxınlığındadır.**

# Bölgələrdəki tarixi mədəniyyət abidələrinə nəzarət sistemində hansı boşluqlar var...

## *Rizvan Qarabağlı: "...kağız üzərində nəzarət edirlər"*



Bu abidələrin bir qismində arxeoloji tədqiqat işləri aparılsa da, onlar Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən qeydiyyata alınsa da, hələ də qeydiyyata alınmamış kifayət qədər abidə var. Həmin abidələrdə mütəxəssislər tərəfindən tədqiqat aparılsa da, amma qeydiyyata alınmayıblar. Həm bu amil, həm də abidələrin bir çoxunun mərkəzdən uzaqda, dağ yerlərində olması səbəbindən həmin abidələrə tam olaraq nəzarət etmək mümkün deyil.

Bu abidələrin dövlət qeydiyyatına alındığı və mənsub olduğu rayonun müvafiq idarəsi tərəfindən qorunduğu deyilir. Lakin araşdırmalarımız göstərir ki, bu abidələrə nəzarət heç də arzuolunan səviyyədə deyil.

Bir çox memar təklif edir ki, xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da mərkəzi yerlərdən uzaqda yerləşən və nəzarət edilməsi çətin olan abidələrin izlənməsi üçün müasir texnologiyalardan istifadə edilsin. Yəni abidənin mühafizəçisi, nəzarətçisi o abidənin vəziyyətini ora getmədən, kamera vasitəsilə idarədən də izləyə bilər.

Memarlıq üzrə fəlsəfə doktoru, Azərbaycan Memarlar İttifaqının üzvü Rizvan Qarabağlı bizimlə söhbətində bildirdi ki,ümumiyyətlə, bölgələrdə abidələrə nəzarət çox aşağı səviyyədədir. R.Qarabağlı hesab edir ki, abidələrə nəzarət sistemi yenilənməlidir: "Abidələrin mühafizəsi, onlara nəzarət arzuolunan səviyyədə deyil. Mədəniyyət Nazirliyinin bölgələrdəki qurumları abidələrin mühafizəsini o qədər də güclü şəkildə həyata keçirə bilmirlər. Abidə nəzarətçiləri var ki, heç bilmir nəzarət etdiyi abidə rayonun harasında yerləşir. Gədəbəydə Koroğlu qalası var, qeydiyyata alınmış abidədir, bu abidəyə nəzarət edən gənc bir qızdır. Mən ondan abidənin harada yerləşdiyini soruşduqda göstərə bilmədi. Çox təəssüf ki, bəzi idarələrdə nəzarətçilər abidələrə kağız üzərində nəzarət edirlər. Abidələrə mövcud nəzarət sistemi tələblərə cavab vermir. Bu səbəbdən də abidələrin mühafizə, nəzarət sistemi tamamilə yeni tələblərə uyğun, yeni texnologiyalardan istifadə edilməklə qurulmalıdır.

*"Abidələrin mühafizə, nəzarət sistemi tamamilə yeni tələblərə uyğun, yeni texnologiyalardan istifadə edilməklə qurulmalıdır"*

Hesab edirəm ki, tarixi, memarlıq, arxeoloji abidələrə nəzarət tamam başqa şəkildə həyata keçirilməlidir. Mədəniyyət idarələrində monitorlar quraşdırılmalı və həmin monitorlar vasitəsilə abidələrə nəzarət edilməlidir" - deyə bildirən R.Qarabağlının sözlərinə görə, bu sistem abidələrin mühafizəsinin təşkilində müsbət rol oynayar.

***İradə SARIYEVA***

№ 16 (4147) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

30 YANVAR 2020-ci il

www.baki-xeber.com



# Ayda oksigenin alınmasına imkan verən qurğunun prototipi hazırlanıb

**Avropa Kosmik Agentliyinin mühəndisləri gələcək kolonistlərin Ayda oksigen əldə etməsi üsulunu tapıblar.**

"Ted.az" bildirir ki, Ay reqolitini (qayaları örtən heterogen material) yenidən emalı bunu mümkün edəcək. Yerdə aparılan tədqiqatlar göstərib ki, reqolitin tərkibinin 40-45 faizə qədərini oksigen təşkil edir. Reqolitdə qaz oksid mineralların daxilindədir. Bu günədək onu çıxarmağın yolları müəyyənləşdirilməsə də, artıq elektrolizdən istifadə edərək bunu reallaşdıran qurğunun prototipi hazırlanıb. Alimlər iddia edirlər ki, gələcəkdə qurğu Ay kolonistlərinin həyat fəaliyyəti üçün lazımı qədər oksigen istehsal etməyə imkan verəcək. Ay tozundan oksigenin alınması texnologiyasının əsasında əridilmiş duzun elektrolizi metodu dayanır. Kimyəvi reaksiyanın başlaması üçün reqolit 950 dərəcəyə qədər qızdırılmış kalsium xloridinin əridilmiş duzu ilə qatışdırılır. Bundan sonra qarışığa verilən elektrik cərəyanı tozdan oksigeni çəkir.

Bu halda əridilmiş duz elektrolit rolunda çıxış edir. Avropa Kosmik Agentliyi sınaqların aparılması üçün qurğunun tamamlanmış versiyasının Aya göndəriləcəyinə dair planlarını açıqlayıb.

## "Nar+" tətbiqindən istifadə edənlərin sayı 100 mini ötüb

**Təqdim etdiyi telekommunikasiya xidmətlərini hər zaman müştərilərin ehtiyaclarını nəzərə alaraq formalaşdıran "Nar" artıq 5 aydır "Nar+"tətbiqini abunəçilərinin istifadəsinə verib.**

Hesaba rəqəmsal nəzarət imkanı verən bu tətbiq artıq "Nar" abunəçilərinin şəffaf müştəri təcrübəsinin ayrılmaz bir hissəsinə çevrilib. Belə ki, bu qısa müddət ərzində tətbiqdən qeydiyyatdan keçənlərin sayı 100.000-i ötüb.

Abunəçilər "Nar+" vasitəsilə bir neçə saniyə ərzində özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə, bonuslarını yoxlaya və yeniləyə bilirlər. Tətbiqlə sərfiyyat haqqında izahlı qaiməni də şəffaf şəkildə əldə etmək mümkündür. Tətbiqin daha bir unikal xüsusiyyəti eyni anda vahid platforma üzərindən 5-dək hesaba nəzarətetmə imkanı verməsidir. Belə ki, əgər bir neçə şəxsi "Nar" nömrə istifadə edirsinizsə və ya yaxınlarınızın hesabında əməliyyat aparmaq lazımdırsa, tətbiqdən çıxmadan bir kliklə bir hesabdan digərinə keçid edə bilərsiniz.

Qeyd edək ki, "Nar+" tətbiqini AppStore və PlayStore-dan yükləyə bilərsiniz. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.nar.az/plus/ səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

### Elan

Azərbaycan Respublikası Vergilər Nazirliyi 12 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən Kəlbəcər Rayon Mərkəzi Xəstəxanasına 2005-ci ildə verilmiş publik hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə (N5800013191VÖEN) itdiyi üçün etibarsız sayılır.

## 28 tələbə "Azercell Təqaüdçüsü" fəxri adına layiq görülüb

*"Azercell" 2020-ci il üzrə Tələbə Təqaüdü Proqramının nəticələrini elan edib*

**28 noyabr 2020-ci il tarixində "Azercell" Tələbə Təqaüd Proqramı üzrə qalib gələn tələbələrin təntənəli mükafatlandırma mərasimini keçirib.**

"Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev, "Azercell"in İnsan kapitalının idarə edilməsi departamentinin direktoru Ziba Mustafayeva və SABAH İcra Komitəsinin tələbələrlə iş üzrə meneceri Mehriban Nəzərova qalibləri təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzu ediblər. "Yarandığı gündən etibarən "Azercell" tələbələrin fərdi və peşəkar inkişafına böyük töhfə verməklə yanaşı, bu istiqamətdə yeni imkanların yaradılması üzərində çalışır. Biz istedadlı gənclərin elmi fəaliyyətinin təşviqinə yönəlmiş bir sıra layihələrin təşəbbüskarı olmaqdan qürur duyuruq. Artıq 12 ildir "Azercell" hər il ənənəvi olaraq tələbələr üçün Təcrübə və Təqaüd proqramları həyata keçirir və şirkətimiz bu günə qədər 230-dan çox tələbəyə təqaüd ayırıb ", - deyə Vahid Mürsəliyev tədbirdə çıxışı zamanı qeyd etdi.

Xatırladaq ki, "Azercell"in Tələbə Təqaüdü proqramına müraciətlərin qəbulu cari ilin sentyabr ayında açıq elan olunub. Müraciət etmiş 1750 tələbədən 741-i öncədən qoyulan tələblərə cavab verərək, mərhələli seçim prosesinə dəvət alıblar. Proqramda iştirak edən bütün tələbələr üçün bərabər şəraitin yaradılması məqsədilə İnsan kapitalının idarə edilməsi departamentinin mütəxəssisləri üç ay ərzində paytaxt və bölgə universitetlərinin tələbələri ilə görüşərək proqram haqqında məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, bu il 28 tələbə "Azercell" təqaüdçüsü adına layiq görülüb. Təqaüdçülərin 9-u Bakı, 10-u bölgə təhsil müəssisələrinin tələbələridir. Digər 9 tələbə isə 2017-ci ildə Təhsil Nazirliyinin SABAH qrupları və "Azercell Telekom" MMC arasında imzalanmış memorandum çərçivəsində SABAH tələbələri sırasından seçilib. Qaliblər ali təhsillərinin sonunadək "Azercell" şirkətindən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqqında biliklərini artırmaq, rəqəmsal dünyanın ən son trendləri ilə yaxından tanış olmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və şirkətdə təcrübə keçmək imkanını əldə ediblər.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Bu gün bəzi çətinlikləriniz olacaq. Onların hamısının öhdəsindən gəlməyiniz vacibdir. Çünki, gələcək uğurlarınız onlardan asılıdır. Mübarizəyə köklənin və mövqeyinizi əldən verməyin.



**Buğa** - Emosional fon gərgindir. Bu səbəbdən yaxınlarla münasibət də gərilməkdədir. Bunlar bir çoxlarına xırda problem kimi görünsə də, bəziləri artıq köhnə əlaqələri yeniləmək, gələcək addımlar barədə düşünməyə başlayıblar.



**Əkizlər** - Hər şeyin yaxşılığa doğru dəyişəcəyi ümidinin sizi tərk etməsinə izn verməyin. Optimizm və sakit inam istənilən şəraitdə uğuru sizə doğru maqnit kimi çəkəcək.



**Xərçəng** - Bu gün eyni zamanda həm hiyləgər, həm də dözümlü olmalısınız. Gün sadə deyil, qarşınıza qoyduğunuz məqsədlər isə çox ciddidir və geri çəkilmək olmaz. Xoşbəxtlikdən, çox güclü bir şəxs köməyinizə gələcək.



**Şir** - Gün ərzində yaxınlarınızla razılığa gəlməyə çalışacaqsınız, amma yalnız axşama doğru ortaq məxrəcə gələ biləcəksiniz. Fikirləşməyin ki, sizi elə bir sözünüzdən anlayırlar, fikrinizi anlatmaqda tənbəllik etməyin.



**Qız** - Təhsil almaq, yeni biliklər öyrənmək üçün əla gündür. Bu gün informasiyanı əldə etmək və yadda saxlamaq sizə çox asandır. Alış-veriş edə bilərsiniz, amma ev təmirinə çəkdiyiniz xərc hədər gedəcək.



**Tərəzi** - Sevdiyiniz şəxslə münasibətləriniz ahəngdardır, savaşdan qorxmadan istənilən məsələni onunla müzakirə edə bilərsiniz. Köhnə tanışlarınızla görüşləriniz sizi sevindirəcək. Enerjiniz çoxdur.



**Əqrəb** - Sizi maraqlı və xoş bir gün gözləyir. Öz istedadınızı tətbiq etmək üçün gözlənilməz bir sahə tapacaqsınız. Nüfuzlu adamların xoşuna gələcək, onların inamını qazanacaqsınız. Peşəkar və şəxsi işlərinizi yoluna qoymaq üçün əla gündür.



**Oxatan** - Gücünüz aşıb-daşır, o qədər enerji hiss edirsiniz ki, onu sərf etməyə doğru bir yer tapsanız, əla olar. Əgər kontakt idman növlərilə məşğul olursunuzsa, yaxud fiziki işlə məşğul olacaqsınızsa, bir qədər diqqətli olun.



**Oğlaq** - Gün asan və xoşdur. Maraqlı insanları öz ətrafınıza toplaya biləcəksiniz. Və onlar nə qədər cəsarətli olsalar, bir o qədər yaxşıdır. Enerjiniz və inadınız başladığınız işi sona çatdırmağa sizə imkan verəcək.



**Dolça** - Ənənələrdən kənara çıxsanız, özünüzün çox cəsarətli bir planınızı həyata keçirə bilərsiniz. Əsas məsələ odur ki, həddinizi aşmayasınız. Bir qədər çox canfəşanlıq etsəniz, o zaman sizi dağıdıcı və günahkar elan edəcəklər.



**Balıqlar** - Bu gün hər hansı bir sürpriz vəd etmir. Sakit və rəvan, maraqlı və ümumilikdə xoş keçəcək. Özünüzdən qəhrəmanlıq və qeyri-adi hərəkətlər tələb etməyin, rahat olun, ümumi axına qoşulun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bu planetin istiliyi hidrogen molekullarını parçalayacaq səviyyədədir

**Ən isti planet olaraq kəşf edilən KELT-9b-nin səth istiliyinin planetin atmosfer qatındakı hidrogen molekullarını parçalayacaq səviyyədə olduğu müəyyən edilib.**

"Milli.Az" xəbər verir ki, planetdə hər gün gündüz vaxtı bu hadisə təkrarlanır və molekullar gecə yenidən birləşir. KELT-9b-nin Yupiterin 3 misli qədər kütləyə sahib bir planet olduğu bildirilir. Planetin səth istiliyi 4300 dərəcə selsiyə qədər yüksəkdir. Bu, KELT-9b-ni indiyə qədər kəşf edilmiş ən yüksək temperatura sahib bir planet etməyə kifayət edir. 670 işıq ili məsafəsində molekulları parçalara ayıracaq qədər yüksək səth istiliyinə sahib olan ekzoplanet ABŞ Milli Kosmos və Aeronavtika İdarəsi (NASA) tərəfindən yaşayış üçün yararsız olan planetlər kateqoriyasına daxil edilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.